www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 iyun 2025-ci il Cümə axşamı № 97 (8707) Qiyməti 60 qəpik

**Xəbər**

## İtkin şəxslərlə bağlı yeni gəlişmə: ailələr üçün ümid işığı

yazısı səh.3-də

**Gündəm**

### Yeri görünən bayrağımız - iki diplomat, tək bayraq və...



Belə insidentlər niyə yalnız İranda yaşanır - şərh

yazısı səh.7-də

### Paşinyan-kilsə qarşıdurması - Bakının manevr imkanları artır

yazısı səh.9-da

### Azərbaycanın OPEC-dən gözləntisi - neft hasilatımız hansı tarixədək azalacaq?

yazısı səh.10-da

### Büdcəmizdəki yarım milyardlıq kəsir - iqtisadçının şərhi

yazısı səh.12-də

### "Qara piar"ın gətirdiyi uğur: "İfşa edilən" namizəd necə prezident seçildi?

yazısı səh.5-də

### Ölkədə bir ildə bu qədər məktəb bağlanıb - səbəb

yazısı səh.11-də

### Tarixi gerçəyi dilə gətirən azərbaycanlı deputatın nəsibi

yazısı səh.14-də

### "Dişi ağrıyanda da həkimə aparmayıblar"- özünü öldürən qadının dəhşət hekayəsi

yazısı səh.13-də

### "Kontakt Home" absurdu: qüsurlu mal satdılar, məhkəməyə verib pulunu aldılar

yazısı səh.13-də

### Müsəlmanları təhqir edən Şepixinin saxlanılması ajiotaj doğurdu

yazısı səh.14-də

# BAKININ O QƏRARINDAN SONRA... - RUSİYANIN CASUS YUVALARININ SONU

Azərbaycanın ardınca bir sıra ölkələrdə də "Rus ev"lərini yıxmağa başlayıblar; Moskvanın "gizli göz"ləri qapadılır, Kreml "domino effekti"ndən nəticə çıxarmasa...

yazısı səh.9-da



# SOS! Çimərliklər açılmayıb, amma Xəzər artıq can alır - əhaliyə çağırış

Yay mövsümü özü ilə köhnə problemi də gətirib; suda boğulmaların qarşısını necə almalı; FHN rəsmisindən tövsiyələr

yazısı səh.15-də



Valentina Matviyenko

### Kreml daha bir emissarını İrəvana göndərir

yazısı səh.5-də



Natiq Cəfərli

### "Rusiyadan qayıdacaq soydaşlarımızla bağlı proqramlar hazırlanmalıdır"

yazısı səh.12-də



### Vardanyan üçün gecikən dua - revanşistlər də ona sahib çıxmadı

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 97 (8707) 5 iyun 2025



## Prezidentdən 1.5 milyon manatlıq sərəncam

**Quba rayonunun Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (137 km) - Çiçi-Səbətlər-Qənidərə-Sırt Çiçi-Təngəaltı avtomobil yolu əsaslı təmir olunacaq. Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.**

Sərəncamla 7 min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 1,5 milyon manat ayrılıb.

## Göygöldə ağır qəza

**İyunun 3-ü saat 23:10 radələrində baş verən yol-nəqliyyat hadisəsi ilə əlaqədar Göygöl Rayon Mərkəzi Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə 5 nəfər (kişi cinsli) hospitalizasiya olunub.**

Bu barədə "Unikal"ın sorğusuna cavab olaraq Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) məlumat verilib.

Qeyd olunub ki, müxtəlif növ bədən xəsarətləri alan pasiyentlərə zəruri tibbi xidmətlər göstərilib. Vəziyyətləri qənaətbəxş olan şəxslər ambulator müalicə üçün evə buraxılıblar.

## Şeyx bayram namazının vaxtını açıqladı

**Builki bayram AMEA Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən Qazılar Şurasının fətvasında qeyd olunduğu kimi, hicri-qəməri təqvimlə zilhiccə ayının 10-na, miladi tarixlə 6 iyun tarixinə təsadüf edir.**

Bu barədə QMİ sədri şeyxülislam Allahşükür Paşazadə bayram təbrikində bildirib.

Onun sözlərinə görə, şəri hökmlərə əsasən, 3 gün ərzində icra oluna bilən Qurban kəsimi Həcc ziyarəti zamanı mütləq vacib əməldir, həcc xaricində olan müsəlmanların qurban kəsib ehtiyacı olanlara paylamaq niyyəti isə müstəhəb və savabdır.

Allahşükür Paşazadə qeyd edib ki, Qurban bayramı namazları ölkəmizin bütün mərkəzi məscidlərində qeyd ediləcək, o cümlədən Bakının "Əjdərbəy" məscidində bayram namazı saat 08.00-də, "Təzəpir" məscidində 09.00-da qılınacaq.

## Bir gündə kartlardan 10 min manat oğurlandı

**Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək onları bank kartları ilə bağlı dələduzluq hallarına qarşı diqqətli və ehtiyatlı olmağa çağırır. DİN-dən məlumat verilib.**

Bildirilib ki, iyunun 3-də DİN-ə daxil olan müraciətlər əsasında aparılmış araşdırmalar nəticəsində məlum olub ki, ayrı-ayrı şəxslərin bank hesablarından 7000, 980, 660, 550, 400, 285, 150, 130, 100 və 28 manat məbləğində vəsait oğurlanıb.

Vətəndaşlara bir daha xatırladılır ki, bank kartlarının arxa hissəsində yerləşən CVV/CVC kodu, kartın istifadə müddəti, habelə SMS vasitəsilə göndərilən OTP (birdəfəlik şifrə) kimi məlumatlar tam məxfi saxlanmalıdır.

Bu məlumatların üçüncü şəxslərlə paylaşılması bank hesablarından pulun oğurlanmasına, həmçinin vətəndaşın adından kredit və digər maliyyə əməliyyatlarının həyata keçirilməsinə səbəb ola bilər.

# "Azərenerji": "Tariflər real qiymətdən 13 dəfəyə qədər aşağıdır"




**"Azərbaycanda elektrik enerjisinə görə 1 kvadratmetr sahə üçün 1 aylıq istilik enerjisi 24-80 qəpiyə başa gəlir, amma tarif 30 qəpik müəyyən olunub".**

Axar.az xəbər verir ki, "Azərenerji" ASC-nin Texniki İstehsalat İdarəsinin rəisi Vaqif Tağıyev Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclasında - "İstilik təchizatı haqqında" qanun layihəsi ilə bağlı ictimai dinləmədə bildirib.

"1 kvadratmetr yaşayış sahəsinin isidilməsi üçün iki normativ var. 1990-cı illərdən sonra tikilib istifadəyə verilmiş binalarda istilik izolyasiyaları var. 1990-cı illərə qədər tikilən binalar isə panel evlərdir. 1-ci kateqoriya üzrə hər mövsümdə 1 kvadratmetr sahə üzrə 60-80 kVt/saat, 2-ci kateqoriya üzrə isə hər mövsümdə 1 kvadratmetr sahə üzrə 150-200 kVtsaat elektrik enerjisi tələb olunur. Ümumiyyətlə, hazırda istilik enerjisi ilə bağlı tariflər real tariflərdən 4-13 dəfə aşağıdır", - deyə o qeyd edib.

## Bu günün hava proqnozu: yağış, dolu, isti...

**Milli Hidrometeorologiya Xidməti iyunun 5-də gözlənilən hava şəraitinin proqnozunu açıqlayıb. Qurumdan verilən məlumata əsasən, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 17-19° isti, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-65 %, gündüz 50-55% olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər əksər rayonlarda yağıntıda fasilə olacaq. Gecə və səhər bəzi yerlərdə zəif duman. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 16-19° isti, gündüz 25-30° isti, dağlarda gecə 5-10° isti, gündüz 13-18° isti olacaq.

## Bakıda aliment verməyən ata həbs edildi

**Bakıda 39 min manata yaxın aliment borcu yaranan şəxs həbs edilib. Modern.az-ın məlumatına görə, məhkəmənin qərarı ilə 37 yaşlı Salyan sakini boşandıqdan sonra keçmiş həyat yoldaşına 411 manat aylıq aliment ödəməli olub.**

Lakin o, icra məmurlarının dəfələrlə etdiyi xəbərdarlıqlara və tətbiq olunmuş inzibati cəzalara baxmayaraq, ümumilikdə 38 min 139 manat məbləğində aliment borcunu ödəməyib.

Salyan sakini məhkəmədə özünü təqsirli bilməyib və bildirib ki, hazırda sürücü işləyir, aylıq gəliri 466 manatdır və maaşının 70%-i aliment kimi tutulur. O, uzun müddət həbsdə olması səbəbindən borcun toplandığını və maddi imkansızlıq ucbatından ödəniş edə bilmədiyini deyib.

Lakin məhkəmə onun arqumentlərini əsaslı saymayaraq, Cinayət Məcəlləsinin 306.1-ci maddəsi (qanuni qüvvəyə minmiş məhkəmə qərarını qəsdən icra etməmə) ilə təqsirli bilib və ona 1 il 8 ay azadlıqdan məhrumetmə cəzası verib.

Məhkəmə həmçinin onun barəsində əvvəllər seçilmiş "başqa yerə getməmək barədə iltizam" qətimkan tədbirini "həbs"lə əvəz edib və şəxs məhkəmə zalında dərhal həbs olunub.

## "Roşka"nın həbs müddəti uzadıldı

**Polis tərəfindən saxlanılan "Roşka" ləqəbli tiktoker Rövşən Süleymanov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb. APA xəbər verir ki, Nəsimi Rayon Məhkəməsində hakim Günay Abdinovanın sədrliyi ilə keçirilən prosesdə qərar qəbul olunub.**

Qərara əsasən, tiktokerin həbs müddəti 2 ay müddətinə uzadılıb. Ona qarşı Cinayət Məcəlləsinin 234.4.3-cü (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddələri ilə ittiham irəli sürülüb.

## Tiktoker azadlığa buraxıldı

**Polis tərəfindən saxlanılan "Xozeyn" ləqəbli tiktoker Vüqar Kərimov azadlığa buraxılıb. Bu barədə APA-ya vəkil Yusif Seyfəlov məlumat verib. Vəkil bildirib ki, Vüqar Kərimovun ev dustaqlığına buraxılması ilə bağlı məhkəməyə vəsatət verilib. Nərimanov Rayon Məhkəməsinin qərarı ilə vəsatət təmin edilib və tiktoker ev dustaqlığına buraxılıb.**

Qeyd edək ki, tiktoker Vüqar Kərimov polis tərəfindən saxlanılıb. Onun barəsində Cinayət Məcəlləsinin 234.1-1-ci (satış məqsədi olmadan külli miqdarda qanunsuz narkotik vasitələr və ya psixotrop maddələri saxlama və ya daşıma) maddəsi ilə ittiham irəli sürülüb.

## Mahir Emreli 3 klubdan cavab gözləyir

**Azərbaycan millisinin futbolçusu Mahir Emreli bir neçə klubla danışıqlar aparır. Modern.az-ın məlumatına görə, ötən mövsümün sonunda Almaniyanın "Nürnberq" komandasından ayrılan 28 yaşlı forvarda həddindən artıq çox təklif var.**

Lakin təcrübəli futbolçu qərar verməyə tələsmir. Hazırda azad agent olan hücumçu daha səviyyəli komandada oynamaq istəyir. M.Emreli bu səbəbdən əsas 3 klubdan cavab gözləyir. Həmin komandaların adları açıqlanmasa da, tərəflərin müqavilə detallarını, xüsusilə maliyyə məsələlərini müzakirə etdikləri bildirilir. Futbolçunun yeni klubunun adına yaxın günlərdə aydınlıq gələcək.

Qeyd edək ki, Mahir Emreli "Nürnberq"in heyətində ötən mövsümü 25 oyunda 11 qol və 1 məhsuldar ötürmə ilə tamamlayıb.

## 4 nəfər zəhərlənərək ölüb

**Bir ayda 103 nəfər zəhərlənib. Bu barədə Kliniki Tibbi Mərkəz məlumat yayıb. Qeyd edilib ki, may ayı ərzində Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə zəhərlənmə səbəbi ilə 103 nəfər qəbul edilib.**

Şöbəyə qəbul edilən xəstələrdən 38 nəfər dərmandan, 30 nəfər sirkə turşusundan, 2-si spirtli içkidən, 8-i ilan sancmasından zəhərlənən şəxslərdir.

Həmçinin onlardan 1 nəfər dəm qazından, 14 nəfər allergik reaksiyadan, 4 nəfər botulizmdən, 2 nəfər fosfor üzvi birləşmələrdən, 4 nəfər yabanı bitkilərdən zəhərlənmə səbəbi ilə şöbəyə yerləşdirilib.

Həkimlərin səylərinə baxmayaraq, zəhərlənən şəxslərdən 4 nəfər (3 kişi cinsli, 1 qadın cinsli) dünyasını dəyişib. Ölüm halları sirkə turşusu və dərman zəhərlənmələrindən qeydə alınıb.

## Sabirabadda 4 nəfərlik ailə yanaraq öldü

**Sabirabaddakı yanğında ölənlərin kimliyi məlum olub. APA-nın məlumatına, Muğan Gəncəli kənd sakini, 1956-cı il təvəllüdlü İmanova Bahar Niyaz qızına məxsus, ümumi sahəsi 240 kv. metr olan fərdi yaşayış evi yanıb.**

Hadisə zamanı 1989-cu il təvəllüdlü İmanov Tural Ağasəf oğlu, 2002-ci il təvəllüdlü gəlini İmanova Safalı Qorxmaz qızı, nəvələri - 2020-ci il təvəllüdlü İmansoy Osmanbəy Tural oğlu və 2024-cü il təvəllüdlü İmansoy Esma Tural qızı ölüb.

Yeni MÜSAVAT
N 97 (8707) 5 iyun 2025

**Azərbaycanın və Ermənistanın itkin düşmüş şəxslər üzrə dövlət komissiyalarının nümayəndələri arasında növbəti görüş keçirilib.**

Görüş çərçivəsində tərəflər münaqişə zamanı itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması ilə bağlı humanitar məsələləri müzakirə ediblər.

Görüşdə məlumat mübadiləsi imkanları, axtarış tədbirlərinin əlaqələndirilməsi məsələləri nəzərdən keçirilib.


Arzuxan Əlizadə

# İtkin düşmüş şəxslərlə bağlı danışıqlar davam edir: ailələr üçün ümid işığı

Tərəflər humanitar sahədə dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıb və itkin düşmüş şəxslərin ailələrinin maraqları naminə gələcək təmaslara hazır olduqlarını bildiriblər. (Report)

**Milli Məclisin deputatı, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə** Musavat.com-a açıqlamasında xatırladıb ki, I Qarabağ müharibəsindən sonra təxminən 4 mindən artıq vətəndaşımızın taleyi hələ də naməlumdur.

Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrdə dəfələrlə bu məsələ ilə bağlı müraciətlər olduğunu vurğulayan A.Əlizadə Ermənistan tərəfinin digər məsələlərdə olduğu kimi, bu məsələdə də çox qeyri-ciddi, qeyri-konstruktiv mövqe sərgilədiyini qeyd edib: "Bəzi məlumatlara görə, taleyi naməlum şəxslər əsir götürülüb, Ermənistanda, o cümlədən işğaldan azad edilən ərazilərdə saxlanıblar. Ermənistan bu barədə səhih məlumat verməkdən hər zaman yayınıb. Azərbaycanın və Ermənistanın itkin düşmüş şəxslər üzrə dövlət komissiyalarının nümayəndələri arasında keçirilən görüşlər müəyyən qədər fayda verə bilər, amma Ermənistan tərəfinin əvvəlkilərdən fərqli olaraq konstruktiv mövqe sərgiləyəcəyini gözləmirəm. İtkin düşmüş şəxslərin əksəriyyəti ermənilər tərəfindən qətlə yetirilib. İşğaldan azad edilən ərazilərdə mütəmadi aşkar edilən kütləvi qəbiristanlıqlar da bunu deməyə əsas verir ki, insanlar vəhşicəsinə qətlə yetiriliblər, qeyri-insani formada dəfn ediliblər. Uzun müddət keçdiyi üçün itkin düşmüş şəxslərin sağ qalma ehtimalı faktiki olaraq sıfıra bərabərdir. Təbii ki, bütün bu cinayətləri ört-basdır etmək üçün ermənilər lazımi məlumatları verməyəcəklər. İstənilən halda proses davam etməlidir. Bu görüşlər sayəsində bircə nəfərin belə taleyinə aydınlıq gətirilirsə, bu, uğur deməkdir. Gözü yolda qalan ailələr var. Bu baxımdan təmaslar davam etməlidir".

❑ **Nigar HƏSƏNLİ,**
**Musavat.com**

## Çinlə ABŞ yeni ticarət müharibəsi astanasında - 21 gün əvvəl imzalanan razılaşma pozulur



**Mayın 12-də Çin və ABŞ arasında Cenevrə razılaşması imzalanıb. İki ölkə qarşılıqlı tariflərin azaldılması, strateji materialların ixracına "məhdudiyyətlərsiz rejim", eləcə də texnoloji mübadilələrin bərpası barədə razılaşıb. İki nəhəng dövlətin razılığa gəlməsi qlobal bazarlarda xammalın ucuzlaşmasına, investorların rahat nəfəs almasına səbəb olub.**

Ancaq yeni gələn məlumatlar onu deməyə əsas verir ki, cəmi 20 gün əvvəl imzalanan razılaşma sazişi kənara qoyulur. Artıq Vaşinqton Pekini açıq şəkildə, razılaşmanın imzalanmasından sonra Çin nadir torpaq elementlərinin ixracını dondurmaqda ittiham edir. Bu elementlərsə elektrik avtomobilləri, çip istehsalı və hərbi texnologiyada həyati əhəmiyyət daşıyır. ABŞ şirkətləri, xüsusən də "Ford" və "Raytheon" artıq istehsalda çətinliklərlə üzləşdiyini bildiriblər.

Nadir torpaqlar məsələsi təsadüfi deyil. Çin bu sahədə dünya bazarının təxminən 85 faizinə nəzarət edir. Bu resurs iqtisadi deyil, siyasi alətə çevrildiyindən Qərb üçün təhlükəsizlik çağırışı kimi dəyərləndirilir. Çin isə cavabında ABŞ-ı ittiham edir, texnologiya sahəsindəki sanksiyaların, xüsusilə "Huawei" və digər Çin şirkətlərinə qarşı tətbiq edilən ixrac qadağalarının razılaşmanın ruhuna zidd olduğunu açıq deyir. Pekin, həmçinin çinli tələbələrə qarşı ABŞ-da tətbiq olunan yeni viza məhdudiyyətlərini də iqtisadi deyil, ideoloji basqı adlandırır. Çin Xarici İşlər Nazirliyi açıq bəyan edib ki, "biz danışıqlara sadiqik, lakin təzyiq və təhdid dilini qəbul etməyəcəyik".

İndi danışıqlar faktiki olaraq dayanıb. Hazırda ABŞ və Çin arasında yalnız media bəyanatları, ittihamlar və ticarət təhdidləri diqqət çəkir. Vəziyyət 2019-cu ildəki böhranı xatırladır. O zaman da razılaşmalar bir neçə həftə sonra pozuldu, bazarlar təlatüm keçirdi.

Hazırkı gərginlikdə fərqli olan odur ki, bu dəfə ticarət savaşının fonunda geosiyasi rəqabət daha da kəskinləşib. Tayvan məsələsi, Hind-Sakit okean regionunda mövqe savaşı və BRİCS-ə genişlənmə təşəbbüsləri Çin-ABŞ qarşıdurmasını təkcə iqtisadi deyil, ideoloji qütbləşmə səviyyəsinə daşıyır. Hazırkı vəziyyətdə sadə texniki danışıqlarla problemi həll etmək mümkünsüz görünür. Tərəflərin hər biri daxili ictimai rəyi də nəzərə alaraq kompromisə getmək istəmir. Analitiklər hesab edir ki, yalnız iki ölkə liderinin - Donald Tramp və Si Cinpinin - birbaşa siyasi iradəsi ilə yeni mərhələyə keçmək mümkündür. Əks halda, dünya iqtisadiyyatı, xüsusən texnologiya və avtomobil sənayesi yenidən qeyri-sabitlik girdabına düşəcək.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

## Hindistanda yeni anti-Azərbaycan isteriyası - islamofob Modinin "maskası" düşdü



**Gözlənilən idi. Azərbaycan, Türkiyə və Pakistan liderlərinin - İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Şahbaz Şərifin iştirakı ilə Laçında keçirilən üçtərəfli sammitdən ən çox təlaşlanan ölkələrdən biri Hindistan və onun yerli müsəlman əhaliyə zülm eləməkdən az qala, həzz alan irqçi Narendra Modi hökuməti oldu.**

Nyu-Dehlinin reaksiyası isterik xarakterlidir və davam etməkdədir. Sanki Bakı, Ankara və İslamabadın tək məqsədi Hindistanı dövlət kimi yer üzündə silməkdir. Halbuki üçlü ittifaqın hədəfləri bambaşqadır və daha çox müdafiə xarakterlidir. Ən əsası, üç dost və qardaş dövlət beynəlxalq hüququn, haqq-ədalətin diktəsindən doğan bir kursu tərcih edir - Hindistandan və onun Qafqazdakı yeni alətisi Ermənistandan fərqli olaraq...

Laçın sammitinə gəlincə, diqqətçəkicidir ki, Hindistanın aparıcı nəşrləri həmin görüşü "antihind müttəfiqliyi" kimi damğalamaqdadır. Sən demə, Bakı-Ankara-İslamabad üçlüyünün xarici siyasət kursunda tək məqsəd Hindistanı hədəf götürmək imiş. Bu xüsusda adıçəkilən ölkənin aparıcı media resursları başından yekə iddialarda bulanaraq, öz arzusunu gerçək kimi qələmə verməkdədir.

Məsələn, onlardan biri pafoslu şəkildə və hədələyici tonda manşetə bu cümləni çıxarıb: "Hindistan bir güllə belə atmadan Azərbaycanı məhv etməyə hazırlaşır" (?! - red.). Ardınca da qeyd edilir: "Türkiyə, Azərbaycan və Pakistan arasında Hindistana qarşı strateji müttəfiqlik yaradılır... Azərbaycan Dağlıq Qarabağda Ermənistanla münaqişədədir. Əgər Hindistan İrəvana kömək etsə, demək, Azərbaycanı silahsız-zadsız məhv edəcək" (Minval.az).

Fil qulağında yatıblar əməllicə (Hindistan deyəndə yada həm də fil düşür). Görəsən, öz yazdıqlarına özləri inanır? Hər şey qıraqda, Hindistanın Ermənistana verdiyi bir çox silah sistemlərini Pakistan ayarım qabaq sərhəd döyüşləri zamanı metalloma çevirib. Yəni onlar sınaqdan üzüqara çıxıb. Hansı hərbi-texniki üstünlüyə ümid edirlər?..

İkincisi, Azərbaycanın Qarabağda Ermənistanla heç bir konflikti-zad yoxdur. Bu münaqişə 5 ildir tarixdə qalıb. Üstəlik, İrəvan ATƏT-in üzdəniraq Minsk Qrupunun ləğvinə də etiraz eləmir və sülh müqaviləsi üzün faktiki yalvarır. Qısası, Ermənistan öz hayındadır, vuruşacaq hayda yox.

Odur ki, yaxşı olar, uzaq Hindistan da öz başının hayına qalsın, onun aparıcı media qurumları və siyasiləri isə gözlərini, qulaqlarını yaxşı açsınlar. Bizə qarşı xam xəyallarla yaşayıb, "Azərbaycanı məhv etmək" kimi absurd və axmaq planlar qurmasınlar. Azərbaycan asan udulacaq "tikə" deyil, olmayıb. Bunu dəfələrlə isbat edib. Ruslardan soruşa bilərlər...

Bu yerdə yada salaq ki, az öncə eyni aqressiv tonda Hindistandan Azərbaycan və Türkiyəyə turist qadağası ilə bağlı çağırışlar və qərarlar olmuşdu. Hətta elmi-mədəni, o sırada tələbə mübadiləni dayandırmaq təklifləri səsləndirmişdi.

Ancaq islamofob və türkofob Modi hökuməti anlamalıdır ki, bu qəbil demarşlarla, "stəkanda fırtına" yaratmaqla heç kimə "xox" gələ bilməz. Bunlar boşuna səylərdir və əsla Azərbaycan-Türkiyə-Pakistan müttəfiqliyinə, sarsılmaz qardaşlığımıza xələl gətirməyəcək. Niyə?

Çünki üçlü birlik çox möhkəm təməl üzərində qurulub və konkret liderlərdən çox az asılıdır. Bu - üç xalqın dünyada bənzəri olmayan və tarixdən qaynaqlanan son dərəcə təbii ittifaqı. Onu 5-6 hindli turistə Azərbaycan və Türkiyə qadağası qoymaqla zəiflətmək istəyi xülyadır...

Ən rasional yol Hindistanın dağıdıcı yox, qurucu yol tutması, özünün yeni və geydirmə müttəfiqi Ermənistana da bunu təlqin eləməsidir, nəinki onu silahlandırması. O silahların son "mənzili" Bakıdakı Qənimətlər Parkı olacaq. Buna Nyu-Dehli də, İrəvan da gərək şəkk eləməsin.

Güney Qafqazda Azərbaycanın iradəsindən kənar heç bir kənar dövlət kim yerləşə bilməz, o ki ola regiona meydan oxuya. İllah da bölgəyə heç bir dəxli olmayan, özünü "qlobal oyunçu" kimi dünyaya uğursuzcasına sırımağa çalışan Modi Hindistanı...

Kaşmir Pakistandır və nida işarəsi!

❑ **Zahid SƏFƏROĞLU**

Yeni MÜSAVAT
N 97 (8707) 5 iyun 2025



# Solovyov gənc əsgəri edam etməyə çağırdı - təqsiri video çəkməkdir

**Rusiya Prezidenti Vladimir Putinin qızğın təbliğatçısı Vladimir Solovyovun Ukrayna pilotsuz təyyarəsinin hərbi aerodroma hücumunu lentə alan hərbi çağırışçını edam etməyə çağırması hiddət fırtınasına səbəb olub. Bəyanat hətta müharibə müxbirləri tərəfindən belə kəskin tənqidlərə səbəb olub.**

“Bakı-Xəbər” məlumat verir ki, Solovyovun aerodromda pilotsuz təyyarənin endirilməsi zamanı gənc əsgərin çəkdiyi iddia edilən videonun sosial mediaya sızması ilə bağlı insidentə reaksiyası qalmaqal doğurub. Qalmaqal Rusiya infrastrukturuna davam edən hücumlar və İstanbulda aparılan danışıqlar fonunda yaranıb və cəmiyyətdəki gərginliyi önə çəkib.

Efirdə Solovyov çağırışçını “vətən xaini” adlandırıb və “o alçağı çıxarıb sıranın qabağında güllələməyi” təklif edib. O, verilişində “onu, bu çağırışçını vura bilərikmi?”, - deyə sual qoyub.

Gənc əsgərə qarşı ittihamların ədalətsizliyinə işarə edən Roman Alyoxin teleaparıcını tənqid edib. Müharibə müxbiri Vladimir Romanov isə daha da irəli gedərək Solovyovu açıq şəkildə təhqir edib.

Bəllidir ki, Solovyov Kremlin əsas təbliğat ruporlarından biridir. Ukraynada müharibə yeni başlayanda o, böyük bir entuziazmla danışır, Kiyevi almaqdan dəm vurur, Zelenskini qaçmağa çağırırdı. İndi isə Solovyov artıq qələbə haqda danışa bilmir, daha çox daxili tənqidlərə üstünlük verir. Xüsusən də “Hörümçək toru” əməliyyatı onu və Rusiyanın ictimai-siyasi çevrələrini həm hiddətləndirib, həm də pərt edib.

Rusiyalı teleaparıcının edama çağırışı nədən xəbər verir? Əsgəri faktiki linc etməyə çağıran Solovyova rəsmi səviyyədə və ya Rusiya İstintaq Komitəsindən hər hansı irad və ya xəbərdarlıq bildiriləcəkmi?

**Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a deyib ki, Solovyovun bu çağırışı Rusiyada artan paranoyanın və daxili çöküşün göstəricisidir**: “Solovyovun bu davranışı, Rusiyanın informasiya məkanında baş verən deqradasiyanın bariz nümunəsidir. Bu cür çağırışlar cəmiyyətin daha da qütbləşməsinə və insan haqlarının pozulmasına səbəb olur. Rusiya təbliğatının siması, Kremlin sözçüsü kimi tanınan Vladimir Solovyovun sıravi bir çağırışçının edamına çağırışı Rusiyanın nə qədər dərin bir mənəvi və siyasi uçuruma yuvarlandığını açıq şəkildə nümayiş etdirir. Bu çağırış sadəcə bir təbliğatçının emosional reaksiyası deyil. Solovyov bu bəyanəti ilə faktiki olaraq göstərdi ki, Rusiya rəhbərliyi və ona xidmət edən təbliğatçılar artıq cəbhədə baş verən real proseslərə nəzarəti itiriblər. Əsgər kamera arxasında çəkiliş etdiyi üçün güllələnməlidirsə, deməli, orduya, dövlətə, hətta vətənə inam tamamilə itib”.

Politoloq qeyd edib ki, bütün dünyaya “nasistlərə qarşı mübarizə” adı ilə çıxan bir dövlətin öz gənc əsgərinə qarşı bu dərəcədə qəddarlıq nümayiş etdirməsi Rusiyanın ağır durumda olmasını açıq şəkildə göstərir: Bu, sadəcə, bir çıxış deyil. Rusiyada vətədaşa qarşı necə münasibət bəslənildiyinin isbatıdır. Solovyovun ağzından çıxan bu “edam hökmü” bir media fiqurunun deyil, sanki orta əsr inkvizisiya hakiminin hökmüdür. Bu, XXI əsrin ortasında informasiya vasitəsilə tiranlıq tətbiq etməyin nümunəsidir. Bu davranış Putinin qurduğu sistemin daxildən çürüdüyünün, ideoloji və mənəvi boşluğa düşdüyünün açıq sübutudur".

**Politoloqun sözlərinə görə, bu gün Solovyovun “güllələyin” deməsi Putin Rusiyasının artıq yalanlarla ayaqda qala bilmədiyini, qorxu və cəza ilə nəfəs almağa çalışdığını göstərir:** “Artıq bu sistem öz "güllə gücünə" qorxutmaq potensialını cəbhədə yox, daxildə çağırışçıya qarşı tətbiq etməyə məcbur qalıb. Əgər bir çağırışçının çəkdiyi video belə, Kremlin informasiya doktrinasını çökdürə bilirsə, deməli, sistemin özü artıq sabun köpüyü kimidir, toxunsan, partlayacaq. Solovyov və onun kimi təbliğatçılar əvvəllər “Qələbə mütləqdir” ritorikasını səsləndirirdilər. İndi isə daxili düşmən axtarışına çıxıblar. Hərbi uğursuzluqları gizlətmək mümkün olmadığından, qəzəbi sıravi əsgərin üstünə yönəltmək istəyirlər. Solovyovun çıxışı sadəcə təbliğat xətası deyil, dövlətin ideoloji iflasının etirafıdır".

**Politoloq qeyd edib ki, vəziyyətin təhlükəli tərəfi ondadır ki, Rusiya rəhbərliyi indi cəmiyyətin hər təbəqəsini potensial düşmən kimi görür:** “Rusiya artıq totalitarizmin son mərhələsinə olan avtoritar qəddarlıq və sistemli qorxu siyasətinə keçid edib. Nəticə nədir? Rusiya öz əsgərinə güllə tələb edən sistemin ayaqları üzərində dayana bilməz. Çünki bu güllələr sabah həmin sistemin öz beyinlərini də hədəf alacaq”.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Musavat"**

---

**Dünən saytımızın xəbər lentində “Oğlunun dəbdəbəli həyatı baş nazirin istefasına səbəb oldu” başlıqlı informasiya görəndə gümanım dərhal nəinki ölkədən, hətta postsovet məkanından da qıraqa getdi.**



**Samir SARI**

# Oyun-Erdenenin oğlunun oyunu

Açığı, şübhələndim ki, belə işlər Finlandiya, Niderland, Danimarka, nə bilim, İslandiya kimi ölkələrdə olar. 39-42-ci paralellərdə belə, türkün sözü, nazik davranışlara rast gəlməzsən.

Amma başlıqda ölkə adı yox idi deyə məcburən xəbəri açdım (bu, jurnalistika bicliyidir, başlıqda ölkənin və ya istefa verən baş nazirin adı olanda çox adam ta xəbəri oxumur, başlıqdakı informasiya bəs edir). Ona görə də, necə deyərlər, xəbərin içinə girdim və gördüm ki, oğlunun dəbdəbəli həyatına görə istefa verməyə məcbur olmuş baş nazir qardaş Monqolustanın nazirlərinin lideri olan Luvsannamsrayn Oyun-Erdene imiş.

Namxuda, erhem ee-nin (“cənab” deməkdir) adı çox dilə yatımlıdır, gərək üç dəfə, özü də hecalayıb oxuyasan: Luv-san-nam-srayn... Amma keçmiş baş nazirin soyadına söz yoxdur, hətta Oyun-Erdene adamın qulağına şirin gəlir.

Bəs oğluna görə istefa verməli olan baş nazirin finlandiyalı, islandiyalı yox, monqol olması müəllifi təəccübləndirdimi? Əsla. Çünki bu birinci dəfə deyil. Yumjagiyn Sedenbaldan (1974-1984-cü ildə Monqolustanın rəhbəri olub) bəri Monqolustanın siyasi həyatını izləyən biri kimi bilirəm ki, o ölkədə belə hadisələr vaxtaşırı olur. 10-15 il öncə hətta yanacağın qiymətinin 5 tuqrik artmasına görə 7 nazir birdən istefa vermişdi.

Monqollar belədirlər, xalqın söyüşünü, tənqidini götürmürlər, camaat üzlərinə qayıdanda çıxıb dururlar qıraqda.

Oyun-Erdene də təxminən elə edib. Sadəcə, oğlunun sevgilisi ilə birlikdə keçirdiyi lüks həyatla bağlı sosial şəbəkələrdə paylaşımlar yayılanda o, əvvəlcə “ata oğula cavabdeh deyil” arqumentinə sığınmaq istəyib. Amma istifadəçilər ağız-ağıza verib, cənabı tulasifət edəndə parlamentdə də qımıldanmalar baş verib və baş nazirə etimadsızlıq məsələsi qoyulub. Bu dəfə deputatlardan cəmi 44 nəfəri onu dəstəkləyib, qalanları təxminən belə fikirləşib: “Oyun-Erdenenin oğlu öz xayrtı ("sevgili" deməkdir) ilə lüks-lüks keflər edəcək, xarta-xart pul xərcləyəcək, xalqın söyüşünü bizmi götürəcəyik?"



Ona görə də dəstəyinə ümid edilən 20 deputat monqol baş naziri quru yurdda qoyub və o, istefa verməyə məcbur olub.

Vikipediya məlumatlarına baxıram, Oyun-Erdenenin cəmi 45 yaşı var, özü də Harvard universitetini bitirib.

Heç rəvadırmı ki, bu gənc yaşda o boyda adam bir əhlikef oğulun öz sevgili-cananıyla hovuzda çimişməsinin güdazına getsin? Gərək prezident Uxnaagiyn Xurelsux bu işə qol qoymayaydı, gənc baş naziri müdafiə edəydi və onun qanacaqsız oğlunu cəzalandıraydı. Bəlkə də onun sələfi Xaltmaaqiyn Battulqa elə edərdi.

Əslində nə olub ki? Uşaqdır, bilməyib, şəkil-filan çəkdirib. Gədəni TV-yə çıxıb üzr istədər, xalqın qəzəbini yatırda bilərdilər. Ya da paylaşımları saytlardan, hesablardan sildirərdilər.

Yazıram, yadıma düşür ki, Zakir Qaralovun dövründə bir prokuror oğlu Yasamalda “Gelandevaqen” markalı avtomobilini elə aşırmışdı, maşının təkərlərinin dördü də göydə qalmışdı, biz də bu barədə bir replika yazmışdıq. Əməkdaşımızı Bakı prokurorluğuna dəvət edib, danlamağa cəhd etmişdilər, demişdilər ki, guya aşan “Qalik” prokuror oğluna aid deyil. Əməkdaşımız da demişdi ki, o qədər də fərqi yoxdur ki, aşan maşın kimindir, bəlkə hansısa santexnikin oğluna məxsusdur, deyin, yazaq. Santexniki satmamışdılar.

Başqa ölkələrdə olsaydı, baş nazir çıxıb deyərdi, mənim o adda oğlum yoxdur, ya da “ad-soyadları oxşayır, amma mənim oğlum hazırda xaricdədir”. Hətta oğlan özü də çıxıb “mən baş nazirin oğlu deyiləm” deyərdi və məsələni birtəhər yat-yut edərdilər.

Amma işin altında, əl-əlbət, görməmişlik var. Zalım oğlu, pulun var, sevgilin var, hovuzlu villan var, gərək şəklini çəkib, paylaşasan, camaata yanıq verəsən? Birinin varıdır, beşinin yoxudur. Sənin var, yaşa də, ta nə artistciklik edirsən ki, ara yerdə papanı işdən çıxarırlar.

Bax, bəzi ölkələrdə sosial şəbəkələri ona görə qadağan edirlər. Xalqın ovqatını pozur. Sabitliyə zərbə vurur. Monqolustanda sosial şəbəkə olmasaydı, Oyun-Erdenenin oğlu oyun durğuza-durğuza gedərdi, bir monqolun da xəbəri olmazdı.

Yeri gəlmişkən, Monqolustanın 4-cü prezidenti Saxiaqiyn Elbeqdorjun 25 övladından heç biri belə hərəkət eləməyib (o, uşaqların 20-ni övladlığa götürüb, adam balası kimi tərbiyə edib).

**P.S.** *İndi kimsə bu yazını oxuyub deyəcək ki, monqol onlar deyil e, bizik. Xeyr, biz hələ monqol qardaşlara çatmalıyıq, sonra “he-he-he” bölümünə keçməliyik.*

# “Qara piar”ın uğur gətirməsi - “ifşa edilən” namizəd necə prezident seçildi...

## Trampa yaxın şəxslərin öz ölkələrində hakimiyyətə gəlməsi prosesi başlayıb

**Məlum olduğu kimi, Karol Navrotski iyunun 1-də keçirilən seçkilərin 2-ci turunda Polşanın prezidenti seçilib. O, ölkə siyasətində yeni sima olmaqla, indiyə qədər dövlət vəzifəsi tutmayan bir şəxsdir. Navrotski Trampa yaxınlığı ilə tanınır. Tramp onu “öz müttəfiqi” adlandırıb.**

Xatırladaq ki, seçkiqabağı kampaniya dövründə rəqibləri K.Navrotski haqqında xeyli ifşaedici materiallar yayıb, ona qarşı şiddətli “qara piar” kampaniyası aparıblar. Bu, eynilə ötən il ABŞ-da Trampa qarşı aparılan kampaniyanı yada salıb. Maraqlısı odur ki, antitəbliğat kampaniyası Trampın prezident seçilməsi ilə nəticələndiyi kimi, Polşada aparılan “qara piar” kampaniyası da Navrotskinin qələbəsi ilə yekunlaşıb.

Bu, nədən xəbər verir? Ayrı-ayrı ölkələrin seçiciləri millətçilərə üstünlük verməyə başlayıb, yoxsa əndazəsini aşan “qara piar” ona məruz qalanların əlinə oynayır?

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri, deputat Arzuxan Əlizadə** “Yeni Müsavat”a bildirdi ki, Polşada son prezident seçkisi kəskin rəqabət şəraitində keçirilib və 1-ci turda qalibi müəyyən etmək mümkün olmayıb: “Ona görə də 2-ci tur 1 iyunda keçirildi və Karol Navrotski cüzi səs üstünlüyü ilə qalib gəldi. Navrotski sağ mərkəz yönümlü siyasətçidir, həmçinin mühafizəkar kəsimin mövqelərini ifadə edir. Görünən budur ki, Polşa seçiciləri mühafizəkarlara üstünlük veriblər. Karol Navrotski əslində əvvəlki dönəmdə Anjey Dudanın varisi olaraq qəbul edilir. O, özünün radikal baxışları ilə gündəmdədir, eyni zamanda ABŞ Prezidenti Donald Trampa yaxınlığı ilə seçilir. Polşada keçirilən son seçkilərlə ABŞ-da Trampın qalib gəldiyi son seçkilərdə müəyyən oxşarlıqlar da var. Bu da ondan ibarətdir ki, Trampa qarşı böyük "qara piar" kampaniyası həyata keçirilmişdi və eyni “qara piar” kampaniyası Navrotskiyə də qarşı keçirildi və əks-effekt verdi. Bu da onu deməyə əsas verir ki, “qara piar” bir çox hallarda seçkidə namizədin xeyrinə nəticələnir".

**Deputat qeyd etdi ki, Navrotski Polşanın təhlükəsizliyini və suverenliyini daha ciddi qoruya biləcəyi ilə bağlı vədlər verib:** “Həmçinin o, Rusiya-Ukrayna müharibəsində sərt mövqeyi ilə seçilən bir siyasətçidir. Belə bir siyasətçinin prezident seçilməsi Polşada gələcəkdə hazırkı liberal hökumətlə mühafizəkar sağçı prezident arasında müəyyən qarşıdurmaların ola biləcəyindən də xəbər verir. Amma indilikdə Navrotskinin mövqeləri daha güclüdür. Bu, əslində Avropada bir tendensiyadır. Bir çox Avropa ölkələrində son zamanlar keçirilən seçkilərdə mühafizəkarlar, millətçi kəsimə yaxın olan sağçı qüvvələr hakimiyyətə gəlir. Polşadakı seçkilərdə də biz bunu müşahidə etdik”.



**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov “Yeni Müsavat”a bildirdi ki, Donald Tramp öz siyasi düşüncəsinə yaxın siyasətçilərin müxtəlif ölkələrdə hakimiyyətə gəlməsini dəstəkləyir:** "Karol Navrotski də onlardan biridir. Polşa ABŞ üçün müstəsna əhəmiyyətə malik dövlətdir. Mərkəzi və Şərqi Avropada kommunikasiya, logistika, ticari, iqtisadi münasibətlər baxımından Varşava ilə Vaşinqton arasında sıx münasibətlər olmaqla yanaşı, həm də hərbi, təhlükəsizlik, geopolitik nöqteyi-nəzərdən də Polşa ilə ABŞ arasında yaxın əlaqələr, əməkdaşlıq mövcuddur. Ona görə də Polşa prezidenti kimi məsul vəzifəyə Amerikaya bağlı, xüsusilə də Trampın adamı olan bir fiqurun seçilməsi təsadüfi deyil. Maraqlıdır ki, seçki prosesində Karol Navrotskiyə qarşı da qarayaxma kampaniyaları, ifşaedici materiallar dərc olunurdu. Bu da dünya seçki sistemində, seçki texnologiyalarında yeni bir fenomendir, tendensiyadır ki, şəxsi və qapalı məlumatların mediada dərc olunması ilə aparılan “qara piar” əks-effekt verir, ona məruz qalanın təbliğinə çevrilir. Trampın seçkisində olduğu kimi Navrotskinin də seçki kampaniyasında eyni hadisələr yaşandı. Nəticədə bu iki siyasətçi seçkilərin qalibi oldu. Bu da tədqiq olunması lazım olan mövzudur ki, seçki texnologiyaları və mexanizmləri hazırda hansı dövrünü yaşayır. Təxminən 10 il öncə namizədlər sosial şəbəkələrdən uğurlu istifadə edirdilərsə, bu, öz müsbət nəticəsini verirdi. İndi isə bir namizədə qarşı aparılan şiddətli “qara piar” kampaniyası namizədin xeyrinə işləyir. Deməli, artıq yeni dövr yaşanır, insanlar, seçicilər başqa maraqlara meyl edir və seçimlərini daha çox “qara piar”a məruz qalan, daha çox millətçi şüarlarla çıxış edən siyasətçilərin xeyrinə edirlər".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Biri gedir, biri gəlir - Kreml daha bir emissarını İrəvana göndərir

## “Moskvanın Cənubi Qafqaza təsirini tam bərpa etməsi real deyil, çünki...”

**Bu gün - iyunun 5-də Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko Ermənistana səfər edəcək. Ölkənin xarici işlər naziri Sergey Lavrovun səfərinin ardınca Matviyenkonun İrəvana gedişi diqqət çəkir.**




Son zamanlar Rusiya-Ermənistan yaxınlaşması müşahidə olunmaqdadır. Belə görünür ki, Paşinyan Qərbdən lazımi dəstəyi ala bilmir. Artıq bəlli olduğu kimi, Lavrov erməni həmkarı Ararat Mirzoyanla görüşdə deyib ki, “Rusiya Ermənistanın müdafiəsi, suverenliyi və ərazi bütövlüyünün təmin edilməsi üçün hər cür yardım göstərməyə hazırdır”.

Bu əslində o anlama gəlir ki, Rusiya xaricində heç bir ölkə, o cümlədən Paşinyanın ümid bəslədiyi Fransa Ermənistanın təhlükəsizliyinə təminat vermək iqtidarında deyil. Moskvada belə düşünürlər.

Bəzi analitiklərə görə, Paşinyan Lavrovun təhlükəsizliklə bağlı açıqlamasını ciddi qəbul etməyəcək, çünki İrəvan Kremlin iki səbəbdən Ermənistanın maraqlarına zərbə vurduğu qənaətindədir: birincisi, Paşinyan hesab edir ki, Rusiya 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun Qarabağda lokal antiterror əməliyyatı keçirməsinə imkan verməməli idi. İkincisi, Paşinyana görə, Azərbaycan Ordusu Ermənistanla şərti sərhəddə mövqelərini möhkəmləndirdikdə Rusiya buna adekvat reaksiya göstərməyib. Halbuki Rusiyanın Azərbaycana mane olması üçün hüquqi əsası olmayıb.

Bu qəbil səfərlərin intensivləşməsi hansı geosiyasi reallıqlardan qaynaqlanır? Rusiya Ermənistan daxil, Cənubi Qafqazı öz təsir dairəsinə qaytara biləcəkmi?

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı “Yeni Müsavat”a açıqlamasında mövcud durumdan heç bir halda narahat olmadığını qeyd etdi:** “Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenkonun İrəvana səfəri, bu gedişin Sergey Lavrovun bu ölkəyə son səfərinin ardınca baş tutması Moskvanın Cənubi Qafqazda yenidən aktiv təsir imkanlarını gücləndirmək niyyətindən xəbər verir. Bu, xüsusilə də Ermənistanın Qərblə münasibətlərində gərginlik və müəyyən dərəcədə soyuqluq yaşandığı bir dövrə təsadüf edir. Rusiya açıq şəkildə Ermənistanın suverenliyinə və təhlükəsizliyinə təminat verməyə hazır olduğunu bəyan etməklə, həm İrəvana, həm də regiondakı digər oyunçulara geosiyasi mesaj verir: Kreml hələ də bölgəni öz ənənəvi nüfuz zonası hesab edir və bu təsiri itirmək niyyətində deyil. Ermənistanın Qərbə inteqrasiya cəhdləri, xüsusilə Fransadan gözlənilən dəstəyin reallıqla uzlaşmaması fonunda, Paşinyan hökumətini yenidən Moskva ilə taktiki əməkdaşlığa sövq edə bilər.

Bununla belə, Ermənistan cəmiyyətində və siyasi dairələrində Rusiyaya qarşı ciddi etimadsızlıq mövcuddur. Xüsusilə 2020-ci ildən sonra yaşananlar, o cümlədən 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun Qarabağda apardığı antiterror tədbirlərinə Rusiya tərəfindən müdaxilə edilməməsi və sərhəd məsələlərində passiv mövqe İrəvanda Moskvanın müttəfiqlik öhdəliklərini yerinə yetirmədiyi qənaətini möhkəmləndirib. Halbuki bu, həm hüquqi, həm də praktik olaraq mümkün deyildi. Çünki Azərbaycan bütün hərbi ritorikasını BMT-nin bu tip situasiyalarda tərtib etdiyi davranış modeli əsasında həyata keçirmişdi. Lakin ermənilərin Rusiyadan təcavüzkar xarakterli addımlar tələb etməsi tarixi proseslərdən qaynaqlanan gözləntilər idi. Rusiya üçün bu səfərlər eyni zamanda geosiyasi balansı saxlamaq və Cənubi Qafqazda yaranan yeni güc nisbətlərinə uyğun mövqe tutmaq cəhdidir. Lakin Kreml əvvəlki təsir gücünü bərpa etmək istəyirsə, təkcə siyasi bəyanatlarla kifayətlənməməli, etimadı bərpa edəcək konkret addımlar atmalıdır. Əks halda, Ermənistanla Rusiya arasında münasibətlər müttəfiqlik deyil, zərurətdən doğan məcburi dialoq çərçivəsində davam edəcək. Nəticə etibarilə, Moskvanın Cənubi Qafqaza təsirini tam bərpa etməsi real deyil, çünki regionda artıq təkqütblü nüfuz modeli zəifləyib. Regional və qlobal güclərin maraqlarının toqquşduğu bu məkanda, çoxqütblü və dəyişkən diplomatik oyun davam edir".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev hesab edir ki, bütün bu proseslər 9 may paradından sonra başlayıb:** “Son vaxtlar Rusiya rəsmilərinin Ermənistana səfərlərinin intensiv hal alması təsadüfi deyil. Yaranan situasiyadan istifadə etməklə rəsmi Kreml Ermənistanda özünə qarşı olan mənfi münasibətlərdə müsbət istiqamətdə dəyişikliklər etməyə cəhd edir. Söhbət Paşinyan və komandasından getmir. Əsas hədəf son illər ərzində Ermənistan əhalisi arasında Rusiyaya qarşı formalaşmış neqativ fikirləri aradan qaldırmaqdır. Bu fikirlər aradan qalxmayana qədər Paşinyana hər hansı ciddi təsirlər etmək mümkün olmayacaq. Eyni zamanda özünə uyğun, müxalifətin xalq tərəfindən qəbul olunması imkansız olacaq. Hazırkı proses Paşinyanın 9 may tədbirləri üçün Moskvaya səfərindən sonra başladı. Hamıya məlum idi ki, Paşinyan bu səfərə məcburiyyət qarşısında gedib. Çünki ABŞ və Avropa İttifaqından əvvəllər olduğu münasibəti görmədiyindən və bu münasibətlərin ən azı əvvəlki səviyyəyə nə zaman qayıdacağını hələ bilmədiyindən Rusiya ilə əvvəlki ritorikada danışmamağa hələlik üstünlük verib. Bunu yaxşı anlayan Rusiya yaranmış vəziyyətdən istifadə etməklə Ermənistana yüksək ranqlı məmurlarını göndərməyə başlayıb. Səfərlərin bu cür intensiv hal alması əslində Paşinyana sərf etmir. Amma dediyim səbəblərdən buna razılıq verir. Düşünürəm ki, Rusiya üçün Matviyenkonun səfərinin nəticələri Lavrovun səfərinin nəticələrindən fərqli olmayacaq. Yəni son səfər Rusiya-Ermənistan münasibətlərinin müsbət istiqamətə dəyişə biləcəyi perspektivlərini göstərmədi. Paralel olaraq səfər gedişatında Ağ Ev rəsmilərinin təcili olaraq açıqlama verməsi Rusiyanın regionda fəallaşmasından narahatlığın nəticəsi idi. Yəni ABŞ Rusiyanın regiondakı bu aktivliyini bloklamağa çalışacaq. Eyni zamanda özünün və komandasının Rusiya ilə hər hansı bir siyasi gələcəyinin olmamasını yaxşı bilən Paşinyan da hazırkı münasibətlərdə dərinə getməyəcək”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Qərbi Azərbaycana Ədalət və "Hamımız Qərbi Azərbaycanlıyıq" andı

**44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda tarixi hadisələr, qürurverici olaylar bir-birinin ardınca elə sürətlə baş verir ki, adam bəzən baş verənləri ipə-sapa düzməyə, ictimailəşdirməyə, hiss və həyəcanını, qürurunu, iftixarını ifadə etməyə çətinlik çəkir. Belə hallarda yenidən baş qaldırmağa cəhd edən revanşist haylara - yanlara, onların havadarlarına xitabən uca səslə Vladimir Mayokovskinin məşhur şeirinə düzəlişlər etməklə "Alın ...a! Yana-yana qalın...a! Mən Azərbaycan vətəndaşıyam!" demək keçir adamın könlündən.**



Azərbaycanın varlığı boyunca belə iftixar doğuran tarix səlnaməsi yaradılmamışdı. Təkcə son günlərin möhtəşəm hadisələrini sadalayanda böyük siyahı alınır: Şuşada möhtəşəm quruculuq işləri, Xankəndi şəhərində köhnə tikililərin sökülməsi, Xocalı, Laçın və digər ərazilərə yurd həsrətli sakinlərin əbədi qayıdışı, Laçında Beynəlxalq Hava Limanının açılışı, Azərbaycan və Türkiyə prezidentlərinin, Pakistan baş nazirinin iştirakı ilə Zirvə görüşünün keçirilməsi, Qarabağa, Şərqi Zəngəzura bir-birinin ardınca təşkil olunan səfərlərin xoş təəssüratları, Laçın kanat yolunun təməlinin qoyulması, Zəngəzur dəhlizinin tikintisinin yüksək sürətlə həyata keçirilməsi, 2026-cı ilin sentyabrında Şuşa Real Məktəbində tədrisə başlanılacağı haqda müjdənin verilməsi və bu kimi çoxsaylı hadisələr ömrümüzə ömür calayır, düşmənin bağrı çatlayır. Ağdama çəkilən dəmir yolunun Xankəndinədək uzadılması qərarı, Bakı-Ağdam sürət qatarının 32 ildən sonra hərəkətə başlamasını da unutmadıq.

Hələ 21-ci əsrin Nürnberq prosesi - Bakı Hərbi Məhkəməsində Qarabağdakı keçmiş xunta rejiminin rəhbərlərinin xalqımıza və dövlətimizə qarşı törətdiyi cinayətlərin ifşasının özü isə başqa bir tarixdir. Bu, çoxları üçün xəyal oluna bilməyəcək bir prosesdir, İlahi Ədalətin təcəssüm tapmasıdır. İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti hüquq müstəvisində də nümunə ortaya qoydu, həm yüz illərlə istinad olunası, həm də Azərbaycanda nəsillərin fəxrlə dilə gətirəsi, düşmənin dilini qısa edəsi faktların müttəhimlər kürsüsündən etirafına nail olmaqla qiymətli tarix yazdı.

Azərbaycan dövləti Qarabağı yenidən qurur, dağılmış kənd və şəhərlərimizin yerində də yeni, müasir evlər, binalar tikilir, infrastruktur yaradılır, iş yerləri açılır, gələcəkdə uzaq-yaxın ölkələrin yaşıl enerji ilə təchiz edilməsi istiqamətində də böyük potensialdan istifadə istiqamətində nəhəng layihələr gerçəkləşdirilir. Laçın seyrangahından bərpa olunan cənnətməkan bölgələrimizə tamaşa edən Pakistanın baş naziri Məhəmməd Şahbaz Şərifin heyranlığını hamımız izlədik. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəniz səviyyəsindən 1700 metr hündürlükdəki Laçın ucalığında qardaş Azərbaycanın zəfərini məmnunluqla vurğulaması da unudulmaz xatirəyə çevrildi.

Möhtəşəm nəticələrdir. Buraya Azərbaycan Prezidentinin qətiyyəti, prinsipiallığı, hakimiyyət-xalq birliyi, ordumuzun gücü, şəhid və qazilərimizin "Təki Vətən yaşasın" amalı ilə gəldik. Uduzan təkcə Ermənistan, erməniçilik olmadı. Vaxt var idi Azərbaycana "5+2"=qondarma "respublika" tipli "həll yolları"nı təklif edənlər, buna görə dövlət başçısına təzyiq göstərənlər də məğlub oldular. Həm də Bakı "Nürnberq prosesi" onların ifşa prosesidir. Bizi məlubiyyətin dibinə yuvarlatmağa, "Şuşasız Azərbaycan yoxdur" andımızdan keçməyə vadar etmək istəyənlər indi Azərbaycanın yaratdığı reallığa və 1881-ci il yadigarı olan Şuşa Real Məktəbinin bərpa olunan binasına ulduza hürən köpəklərsayağı baxırlar...

Bu sətirləri yazarkən "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu qapıdan içəri daxil oldu, salamlaşdıq və bir gün öncəki səfər təəssüratlarını məmnunluqla bölüşdü. Qarabağ məsələsini bir sayında belə diqqətdən kənarda qoymayan qəzetimizin baş yazarı artıq neçənci dəfə Qarabağda və Şərqi Zəngəzurda səfərdə olur, amma hər dəfə yeni təəssüratlarla geri dönür, möhtəşəm müşahidələrini bölüşür. Məlum olduğu kimi, iyunun 3-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin sayca yeddinci (daha öncə Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran, Xankəndi və Laçın) olan növbəti birgə səfəri baş tutub. 24 siyasi partiyanın sədr və nümayəndələri, politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlərin iştirakı ilə keçirilmiş səfərin proqramı kifayət qədər zəngin və maraqlı olub. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin iştirakı ilə vaxtaşırı diplomatların Qarabağa, Şərqi Zəngəzura səfərləri təşkil olunur. Hikmət Hacıyevin "Bakıda akkreditə olunmuş diplomatik korpusla birlikdə Füzuli hava limanına endik. Şuşa və Xankəndinə yollanırıq. Xankəndidə Qarabağ Universitetini və tələbələri ziyarət edəcəyik. Münaqişədən sonrakı yenidənqurma və Qarabağ və Şərqi Zəngəzurun transformasiyası təsirlidir!", - məzmunlu paylaşımı indinin özündə də təsirlidir. Erməni vandalizminin yerində Azərbaycan dövlətinin həyata keçirdiyi möhtəşəm işləri təqdim etmək olduqca vacibdir, bu, həm də tarix üçün önəmlidir.

Beləcə, Azərbaycan dövləti erməni faşizminin xaraba qoyduğu yurd yerlərimizi yenidən qurub-yaradır, paralel olaraq keçmişin unudulmaması üçün gərəkəni edir, gələcəyə körpülər atır. Amma proses Azərbaycanın hüdudları çərçivəsində məhdudlaşmır, çünki "bu dağların o üzü" də bizim tarixi vətənimizin bir parçasıdır və erməni talanları, vandalizm aktları, deportasiyalar, qan-qadalar... Dövlətimizin prioritetləri sırasında Qərbi Azərbaycana Ədalət, qərbi azərbaycanlıların ləyaqətli qayıdışı çox mühüm yer tutur. Bu gün hədəfimiz yalnız Qarabağa, Şərqi Zəngəzura deyil, həm də Qərbi Zəngəzura Böyük Qayıdışımıza nail olmaqdır. Kimlərsə beynəlxalq hüquqa əsaslanan bu hədəfimizə mane olmaq istəsə, sonda məğlub və rəzil olacaq, Qarabağdakı Şərqi Zəngəzurdakı kimi... Azərbaycan 44 günlük müharibə və bir günlük antiterror əməliyyatı nətcəsində Ermənistanın işğalı altında olan 300-dən artıq yaşayış məntəqəsini azad etdi. Ermənistan adlı qondarma ölkədəki - Qərbi Azərbaycandakı təqribən 300-dən artıq şəhər və kəndlərimizdən 300 min nəfər soydaşımız didərgin salınıb 1988-89-cu illərdə. Bu ədalətsizlik aradan qaldırılmalıdır! Dəfələrlə yazmışıq: İlham Əliyev dedisə, deməli, olacaq! Müzəffər Ali Baş Komandan, Qalib Prezident 28 May Müstəqillik günündə, Laçın Zirvəsindən əbəs yerə Qərbi Zəngəzurun Azərbaycandan qoparılaraq Ermənistana verilməsini xatırlatmadı. Dağların o üzündəki gəlmələrə yerlərini və öhdəliklərini bir daha xatırlatdı.

**Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı prioritetləri bəyan etmişdi.** "Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Birincisi, hesab edirəm ki, bu, ədalətlidir. İkincisi, sentyabr toqquşmaları bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq... Bu gün yerləşdiyimiz yüksəkliklərdən hətta Naxçıvan dağları da görsənir. Yəni bu, doğrudan da tarixi nailiyyətdir. Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq", sözləri bu gün və gələcəyimiz üçün mühüm mesajlardır. Geriyə yol yoxdur, ancaq irəli və haqq etdiyimiz hədəflərə doğru! Təbii ki, beynəlxalq hüquqa əsasən. Azərbaycan Zəngəzura tankla yox, avtomobillərlə gedəcəyini bəyan edir, buna müqavimətin heç bir əsası yoxdur. Dünən səfərdən qayıdan şəxslər Zəngəzur dəhlizində həyata keçirilən möhtəşəm işlərdən danışır. Azərbaycan dövləti var qüvvəsi ilə yoluna davam edir, Zəngəzur dəhlizindən keçməyə icazə istəməyə bilərik günün birində, çünki Prezidentin də dəfələrlə istinadə etdiyi, ötən əsrin əvvəllərinə aid xəritələr var əlimizdə - o torpaqlar türk torpaqlarıdır, Azərbaycana məxsus olub və ədalətsiz yollarla, Azərbaycan xalqının rəyi nəzərə alınmamaqla qoparılıb. Bunu hətta Nikol Paşinyan bir neçə gün əvvəl etiraf etdi, Hayastan qurulanda bu qədər ərazilərin olmadığını söylədi. Həqiqət biz tərəfdədir və bu, əlimizi, qolumuzu qüvvətləndirir!

Ona görə də hədəflərimiz dağları aşıb, Göyçə-Zəngəzur, Dərələyəz, Basarkeçər, Vedibasar, İrəvan, Zəngibasar... bütün Qərbi Azərbaycana doğru istiqamətlənib. Belə bir durumda "Hamımız Qərbi Azərbaycanlıyıq!" andı ətrafında birləşməliyik. Bu, "Şuşasız Azərbaycan yoxdur" andı qədər müqəddəs olmalıdır. Təbii ki, biz savaş istəmirik, ermənilərlə barışa hazırıq. Amma barışın şərtlərindən biri də Aşıq Ələsgər yurduna əsl sahiblərinin qayıdışının təmin olunması, 1991-ci ildə sonuncu tərk edilən Nüvədi kəndinin sakinlərinin yurd həsrətinə son qoyulmasıdır! Bunu beynəlxalq konvensiyalar tələb edir! Ermənistanda 300-dən çox məscid, onlarla mədrəsə, məktəblər, minlərlə evlər darmadağın edilib, 600-dək qəbiristanlıq yer üzündən silinib, bu, beynəlxalq cinayətdir!

Ötən ay Qafqaz Müsəlmanları İdarəsində İrəvan Qazılığı ilə bağlı Əsasnamə qəbul olundu. Səsvermə nəticəsində Bəxtiyar Nəcəfov İrəvan qazısı seçildi. Özü də İrəvan Qazılığı ilkin mərhələdə Qafqaz Müsəlmanları İdarəsinin binasında yerləşəcək. Bu, Qərbi Azərbaycan İcmasının vaxtilə "Qarabağa dönüş" İctimai Birliyinin yerləşdiyi binada fəaliyyət göstərməsi qədər tarixi və dürüst məntiqə əsaslanan qərardır. Qayıdışımız mütləqdir!

**Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasında konkret Yol Xəritəsini təqdim edərək bunları söyləmişdi:** "Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah". Əminik, inanırıq, güvənirik! Amma eyni zamanda hər birimiz Qərbi Azərbaycana Böyük Qayıdışımız naminə əlimizdən gələni etməyə borcluyuq. Bizi birləşdirən ali dəyər və hədəflərdən biri həm də bu yol olmalıdır!

Qəzetimizin daim önəm verdiyi mövzulardan biri - Qərbi Azərbaycanla bağlı silsilə materiallar hazırlayan biri olaraq Qərbi Azərbaycan İcmasına üzvlüyə qəbul edildiyim üçün Qərbi Azərbaycan İcmasına, şəxsən millət vəkili, İcma sədri Əziz Ələkbərliyə təşəkkür edirəm! Yeri gəlmişkən, Əziz bəy Milli Məclisdə, şəhidlərimizin xatirəsinə həsr olunmuş xatirə guşəsinin qarşısında üzvlük vəsiqəni təqdim edərkən dedi ki, son günlərədək məni qarabağlı olaraq tanıyırmış. Açığı, bir çoxlarından eşitmişdim bu xoş kəlməni. On illər boyunca Qarabağa, Şərqi Zəngəzura qayıdışımızın həsrətinə köklənmiş, daha sonra Zəfərimizi tərənnüm edən yazılar yazmışam. Bundan sonra isə Yardımlıda doğulmuş Qərbi Azərbaycanlı kimi daha bir müqəddəs yolun sıravi əsgəri olmaqdan qürur duyuram. Yolumuz açıq, zəfərlərimiz daimi olsun!

❑ **Elşad PAŞASOY,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 97 (8707) 5 iyun 2025

# Yeri görünən bayrağımız - iki diplomat, tək bayraq və...

## Azərbaycan bayrağı ilə bağlı insidentlər niyə yalnız İranda yaşanır?

**Xəbər verildiyi kimi, bu günlərdə Azərbaycanın İrandakı səfiri Əli Əlizadə bu ölkənin xarici işlər nazirinin konsulluq, xaricdə yaşayan iranlılar və parlament məsələləri üzrə müavini Vahid Cəlalzadə ilə görüşüb.**

Görüşdə ikitərəfli konsulluq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Maraqlıdır ki, iki diplomatın görüşdüyü otaqda masa üzərində yalnız İranın dövlət bayrağı qoyulub.

Xatırladaq ki, İranda bayrağımıza qarşı bu və digər formada saygısız yanaşma birinci dəfə deyil. Azərbaycan rəsmilərinin İrana səfərlərində və idman yarışlarında tez-tez bayraq qalmaqalı yaşayırıq. Məsələn, belə hadisə 2020-ci ilin dekabrında xarici işlər naziri Ceyhun Bayramovun İrana səfəri zamanı baş vermişdi. Əvvəlki illərdə bir neçə dəfə şahidi olduğumuz hadisə yenidən təkrarlanmışdı. Nazirimiz iranlı həmkarı ilə görüşü zamanı Azərbaycan bayrağının ütüsüz, qırışlı olduğunu görərək, bayrağın yanında deyil, önündə dayanaraq foto çəkdirmişdi. Hətta belə fikirlər də dolaşırdı ki, Azərbaycan bayrağı, ümumiyyətlə, asılmayıb, Ceyhun Bayramovun sərt etirazlarından sonra tələm-tələsik parçası qırışmış olan bayraq gətirib asıblar. Bütün bunlar da haqlı olaraq, ölkə ictimaiyyətində ciddi narazılıqla qarşılanıb, sosial şəbəkələrin əsas müzakirə mövzularından birinə çevrilmişdi.

2012-ci ildə Azərbaycan-İsrail münasibətləri ilə bağlı dərc olunmuş "Tel-Əviv rəsmi Bakının etirazına reaksiya verib" adlı materialda Azərbaycan bayrağı "Davud qalxanı" ilə yerləşdirilib. Belə hallar Azərbaycan Respublikasının dövlət simvoluna qarşı həqarət faktı kimi qiymətləndirilir. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" konstitusiya aktının prinsiplərinə müvafiq olaraq 75-ci maddənin "Dövlət simvollarına hörmət" bölümündə deyilir:

I. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət simvollarına - onun bayrağına, gerbinə və himninə hörmətlə yanaşmalıdır.

II. Dövlət simvollarına hörmətsizlik nümayiş etdirilməsi qanunda müəyyən edilmiş şəkildə məsuliyyətə səbəb olur.

324-cü maddəyə müvafiq olaraq, Azərbaycan Respublikasının Dövlət bayrağına və Dövlət gerbinə qarşı təhqir iki ilə qədər azadlığın məhdudlaşdırılması və ya bir ilə qədər azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

2015-ci ildə isə Azərbaycan bayrağı ilə bağlı daha bir insident yenə də İranın paytaxtı Tehranda baş verib. Bu şəhərdə yunan-Roma güləşi üzrə böyüklər arasında dünya kubokunda qalib gələn Azərbaycan yığmasının şərəfinə himnin oxunması və bayrağımızın qaldırılması zaman xoşagəlməz insident olub. Azərbaycanın üçrəngli, aypara və səkkizguşəli ulduzdan ibarət bayrağı təhrif edilmiş formada təqdim olunub - bayrağımızda ulduz səkkizguşəli yox, beşguşəli kimi göstərilib.

2017-ci ildə İranın Kirmanşah şəhərində sərbəst güləş üzrə keçirilən dünya kuboku yarışında da bayrağımız təhrif olunmuş formada təqdim edilib. Hətta həmin vaxt bayrağımızdakı rənglər arasına əsassız olaraq 2 ağ zolaq əlavə edilib.

2019-cu ildəTəbriz şəhərində Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın adını daşıyan 5 ulduzlu beynəlxalq mehmanxananın qarşısında bayrağımızın asılmasında nöqsana yol verilib, bayrağımızdakı yaşıl rəng üfüqi istiqamətdə aşağıda olduğu halda yuxarıda, mavi rəng isə əksinə, aşağıda əksini tapıb. Eyni zamanda bayraq üzərindəki səkkizguşəli ulduz və aypara mərkəzdən sola çəkilib.



Bu qədər çoxsaylı bayraq insidentlərinin təsadüf olduğu istər-istəməz şübhə doğurur.

Bu, diplomatik praktikaya nə dərəcədə uyğundur? Bu, diqqətsizlikdən irəli gəlir, yoxsa qəsdən edilmiş hərəkətdir?

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a bildirdi ki, dünyada diplomatik praktikada, idman yarışlarında bəzən bayrağın yanlış yerləşdirilməsi və ya ümumiyyətlə, yerləşdirilməməsi kimi hadisələrə rast gəlinir. Lakin İranda bayrağımızı görməzlikdən gəlmək, yaxud təhrif etmək diqqətsizlikdən irəli gələn hadisə deyil. Çünki belə hadisələr indiyə qədər dəfələrlə baş verib. Sual olunur ki, nədən belə hadisələr ancaq İranda yaşanır? Bu qədər çoxsaylı təsadüf ola bilməz axı. Bu hadisələr İran hakimiyyətinin daxilindəki bəzi ultramillətçi, panfarsist, Azərbaycanın müstəqilliyini qəbul edə bilməyən dairələrin işidir: "İran İslam Respublikasında keçirilən müxtəlif səviyyəli görüşlərdə, idman yarışlarında Azərbaycan bayrağına olan münasibət, çox güman ki, bu ölkənin müxtəlif dövlət strukturlarındakı paniranistlərin xəbis, cılız, miskin xislətindən qaynaqlanır. Bu məsələdə Azərbaycan diplomatlarının da müəyyən qədər məsuliyyət daşıdığını düşünürəm. İranda bilmirəm, amma bütün mədəni dövlətlərdə belə məsələlərlə protokola cavabdeh olan qurumlar, yaxud şəxslər məşğul olurlar. Azərbaycan bayrağı ilə bağlı təxribata və saygısızlığa yol verilməsi faktının ilk dəfə olmadığını nəzərə alsaq, o zaman Tehrandakı səfirliyimiz bu məsələ ilə bağlı daim həssaslıq nümayiş etdirməli, ən azı belə görüşlərdən öncə vəziyyəti dəyərləndirməli və çevik reaksiya verməlidir. Hesab edirəm ki, Azərbaycan diplomatları, yüksək vəzifəli məmurları İranda keçirilən görüşlərə və fars dilində onun necə asılmasını anladan, nümayiş etdirən materiallar aparmalı və təqdim etməlidirlər. Bundan sonra İrana səfər edən rəsmilərimiz və yarışlara gedən idmançılarımız hər ehtimala özləri ilə bayrağımızı da aparsınlar".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# İrəvanda "Paşinyan vətəni satır" şivəni

## "Ermənistan bu fürsəti qaçırsa, növbəti tarixi səhvinin bədəli birdəfəlik olacaq"



Elşən Musayev



Züriyə Qarayeva

**Ermənistanda "Haya Que" milli vətəndaş assosiasiyasının şurası bəyan edib ki, hakim rejim ictimaiyyətin diqqətini mövcud problemlərdən yayındırmaq məqsədilə xalqa qarşı yeni informasiya terrorizminə başlayıb və bu şəraitdə uzun müddətdir hazırlanmış təslim sənədini imzalayıb.**

Bəyanatda iddia olunur ki, Tiranada keçirilən Avropa siyasi konfransından sonra Paşinyan hakimiyyəti üzərinə yeni təslimçi öhdəliklər götürüb.

Paşinyanın "artsax" davasından vaz keçdiyi, Ermənistanın azərbaycanlılarla doldurulması planına haqq qazandırdığı iddia edilir. "Eyni zamanda baş nazir vəzifəsini tutan şəxs Bakının tələblərini açıq şəkildə qəbul edərək, Ermənistan Respublikasının müstəqillik bəyannaməsini və orada əksini tapmış milli məqsədləri rədd edərək yeni konstitusiyanın qəbul edilməsinin zəruriliyindən danışır",- "Haya Que"nin bəyanatında bildirilir.

Son vaxtlar istər radikal-revanşist düşərgədən, istərsə də dini camiədən (keşişlər və katolikoslar səviyyəsində) Paşinyanın milli mənafeni satmaqda ittiham olunması halları artıb. Seçkilər yaxınlaşdıqca belə bəyanatlar daha çox eşidilməkdədir.

Bəs Bakı İrəvandakı iqtidar üçün hansı "xilas kəməri" ata bilər ki, radikal-revanşistlərin hakimiyyətə qayıdışının əngəllənsin?

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev "Yeni Müsavat"a bildirdi ki, sülh müqaviləsinin reallaşma şansları artdıqca Ermənistanda "Haya Que" kimi təxribatçı təşkilatlar da göbələk kimi bir-birinin ardınca ortaya çıxacaq:** "Səbəb də məlumdur: revanşist, radikal qüvvələr ənənəvi metodlarla Paşinyana təzyiq etməkdə qərarlı və israrlıdırlar. Sadəcə, məsələ burasındadır ki, bunların hamısı aşağı-yuxarı eyni bezin qırağıdır və Paşinyanın da imkanı olsa daha radikal addımlar atar. Necə ki, o, zamanında belə addımlar atıb və Azərbaycanın əsəblərini tarıma çəkib. İndi isə Ermənistanın baş naziri situativ vəziyyətə uyğun davranır. Müharibədən sonra Paşinyan bir şeyi dəqiq anladı ki, Azərbaycanla saxta oyunlar, manevrlər keçməz, şərtlər qəbul edilməlidir, sülh müqaviləsi imzalanmalıdır, həmin sənədin reallaşmasına maneə yaradan bütün əngəllər, problemlər aradan qalxmalıdır. Konstitusiya da mütləq dəyişməlidir", - partiya sədri deyib.

**E.Musayevin sözlərinə görə, Paşinyanın başqa yolu, alternativi yoxdur:** "Revanşistlər aranı qatsa da, qatmasa da, o, birmənalı şəkildə buna getməlidir. Ayrıca, son günlər erməni müxalifəti Qərbi Azərbaycan mövzusunu da öz bildikləri və anladıqları kimi gündəmə gətirməkdən çəkinmir. Bu da səbəbsiz deyil. Paşinyan güman ki, bu istiqamətdə də praqmatik addımlar atmağa məcbur olduğunun gərəkliliyini anlayıb və Qərbi Azərbaycan İcmasının tələbləri ilə bağlı düşünməyə başlayıb. Bu isə təbii ki, həmin revanşist qüvvələrin marağına uyğun deyil və ona görə də prosesin qarşısını almağa, qabaqdan gəlmişlik etməyə çalışırlar".

**Deputatın fikrincə, bu durumda Paşinyanın 2 yolu, variantı var:** "Ya revanşistlərin qarşısından geri çəkilərək hər şeyi bərbad etməli, xalqını növbəti məğlubiyyətlərə sürükləməlidir, ya da özündə güc, təpər taparaq Azərbaycanın haqlı tələblərini, şərtlərini qəbul etməlidir. Vəssalam. Onun başqa seçim variantı gerçəkdən yoxdur".

**Politoloq Züriyə Qarayevanın sözlərinə görə, Ermənistanda son günlər baş verənlər bir daha göstərdi ki, İrəvan siyasi böhrandan çıxmaqdansa, onu daha da dərinləşdirir:** "Paşinyanın rəhbərlik etdiyi hökumət "təslimçilik", "xəyanət", "vətəni satmaq" kimi şüarlarla hədəfə alınır, həm keşişlər, həm revanşistlər, həm də ifrat millətçilər eyni cəbhədə birləşirlər.

Azərbaycanın sülh prosesi ilə bağlı mövqeyi aydındır: sərhədlərin müəyyənləşdirilməsi, kommunikasiyaların açılması, qarşılıqlı tanınma və gələcəyə baxış. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət bölgədə real güc balansını nəzərə alır və strateji planlaşdırma üzərində qurulub. Bakının məqsədi revanş deyil, inteqrasiyadır. Savaşın nəticələri artıq tarixdir. Amma bu nəticələri qəbul etməkdə zorlanan Ermənistan cəmiyyəti, xüsusən də "Haya Que" kimi radikal strukturlar, Paşinyanı "Azərbaycanın planına uyan" şəxs kimi təqdim edirlər. Halbuki Paşinyanın atdığı addımlar onun zəifliyinin yox, gecikmiş realizminin nəticəsidir.

Azərbaycan açıq şəkildə göstərir ki, bölgədə qalıcı sülhə gedən yol qarşılıqlı anlaşmadan keçir. Ermənistan isə bu reallığı ya inkar edir, ya da populist ritorikanın tozlu çənbərində boğur. Paşinyanın yeni konstitusiya ilə bağlı çağırışı belə, ölkədə milli hədəflərin dəyişməsi deyil, real təhlükələrin önlənməsi baxımından atılan addım ola bilərdi. Amma İrəvan küçələrində "vətəni satır" qışqırıqları bu cür rasional addımların qarşısını kəsir. Ermənistanın revanşistlərinə veriləcək ən yaxşı cavab məhz Bakının siyasi səbatı və inkişaf yönümlü strategiyasıdır. Qısacası, İrəvan çaxnaşma içindədir, Bakı isə sabit və məqsədyönlüdür. Əgər Ermənistan bu fürsəti qaçırsa, növbəti tarixi səhvinin bədəli birdəfəlik olacaq".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



## İstiliyi artırmaqda məqsəd

Zamin HACI
zaminhaci@gmail.com

**Parlamentoda istilik təchizatı haqda yeni qanun müzakirə edilərkən enerji idarəsinin rəislərindən biri transformatoru sinəsinə basıb, aldı görək nə dedi: "İstilik tarifləri real maya dəyərindən 13 dəfə aşağıdır". Sən demə, bu saat, daha doğrusu, qışda evləri ümumi qazanxana vasitəsilə qızınan binaların sakinləri mayadan 13 dəfə az pul verirmiş.**

Məqsəd nədir? Əlbəttə, istiliyin qiymətini qaldırmaq. Yoxsa camaat qapı-pəncərəni açıb şellənirdi. Qarda-boranda mənzildə tuman-köynəkdə gəzirdilər. Əməllicə harınlamışdılar. Yaxşısı budur, onlara növbəti mövsümdə "otopleniya iynəsi" vurulsun. Yumşaq yerlərindən. O zaman hökumətin qədrini bilərlər.

Vaxtaşırı bizdə belə müalicə üsulları tətbiq edilir. Nəticədə qazın, elektrikin, nəqliyyatın qızdırması aşağı düşübdür. Deyəsən, bircə istilik və su qalıb. Onları da yonub hazırlayandan sonra komplektin başı düzələcəkdir. Adətən bulvarda-zadda qələt eləyib çay içmək istəsən, sənə dəvə dırnağının mürəbbəsini, gərgədan qığını və kaşalotun yumşaq ətini necə sırıyaraq, "almalısan, komplektə daxildir" deyirlərsə, bax, onun kimi. Bizdə fərdiyyətçiliyə, liberalizmə yer yoxdur, hər şey komplekt üsulla olur.

Ancaq normal seçilmiş deputatlar olsa, ilk növbədə həmin enerji rəisini divara dirəməli, hətta bəlkə aparıb parlamentonun yaxınlığındakı Alov qüllələsində dırnaqlarını ütərək xaşını bişirməliydilər. Soruşmalıydılar ki, atam-qərdeşim, xub, lap sən deyəndir və istilik bu namərd camaata mayasından 13 dəfə az verilir. Bəs sizin özünüzün, həmin o məmur yığnağının mayası bu yetimlərə neçəyə başa gəlir? Əminəm ki, hesablasalar, həmin rəisin xalqa indiyə qədər 13 qəpiklik xeyri dəyməyibdir.

Paradoksal vəziyyətdə yaşayırıq. Bir tərəfdən ən bahalı məmurlar sistemi saxlayırıq, bir tərəfdən guya kommunal sektor mayadan yeyir, fısqırıq ucuzluq imiş. Ucuzluq yaxşı şeydirsə, sizin üçün də olsun da bə. Məsələn, bahalı maşınlardan düşün, Naxçıvan istehsalı "Naz-Lifan" sürün. Beşulduz hotellərdə dövlət büdcəsi hesabına yox, üçulduzluda öz cibinizlə qalın. Kayf tutmağa Mayamiyə yox, Zərdaba gedin. Belə şeylərdə fantaziyam o qədər geniş deyil, sadə xalqın bir üzvüyəm, üzrlü sayın, davamını gətirməyə həvəs də yoxdur.

Laçının Bəylik kəndində evlər tikilir, çox gözəl. Sevincimizin həddi-hüdudu yoxdur. Ancaq baxırsan ki, orada mənzilin biri büdcəyə 236 min manata başa gəlib. Eyni anda makler saytında görürsən ki, Bakıda, "28 May"ın yanında hansısa göydələndə 230 minə mənzil satılır.

Ən sonuncunu, mobil şirkətlə bağlı əhvalatı düşünün. Artıq gündəlik 1 manat ödəsən, xətt ancaq 1 gün açıq qalarmış. Camaat üsyan püskürür, lakin heç fikirləşən yoxdur ki, əslində bizi oxşar tarifə ev telefonunda çoxdan keçiriblər: ayda 27 manat verib işlədirik. Bunu böləndə günə təxminən 1 manat etmirmi? Canımız çıxsa da ödəyirik. ("Qul bazarı"nda 2 telefon, 3 nömrə işlədən yetimlər haqda cızmaqaranın məqamıdır, ancaq mən etmirəm, xalqı söyənlər üçün cəhənnəmdə ayrıca qır qazanı hazırlanmışdır, biləsiniz. Maşallah, yetərincə böyük sürüdür. İçlərində müxalifətçi də var, iqtidarçı da. Yazıçısı da var, şairi də. Filosofcuğu da yaranıb hətta. Xalqı qabağına qoyub danlayır, banlayır özü üçün. Xalq da yazıq-yazıq qulaq asır).

Qayıdaq mövzumuza. Mövzu istilik tarifləri idi. Dünyanı qızdırırıq, özümüz isə üşüyürük. Termodinamika qanunları belə tələb edir. Parlamento bunu düzəltməyə çalışır. İstəyirlər istilik pulu artsın, xalqın da istiliyi qalxsın.

Bax, burada məqsəd maraqlıdır. Axı qapalı sistemlərdə istilik prosesləri zamanı entropiyanın artması mütləqdir.



# Vardanyan üçün gecikən dualar - revanşistlər də sahib çıxmadı

## Onu erməni xalqı və ruspərəst müxalifət niyə müdafiə etmədi - səbəblər

**Bakıda mühakimə edilən qondarma rejimin "dövlət naziri" Ruben Vardanyanın dostları onun ad günü münasibətilə "Rubenlə dialoq" müzakirəsi təşkil ediblər. Həmin müzakirələrdə aktyor və rejissor Vardan Petrosyan video vasitəsilə iştirak edib.**

NEWS.am xəbər yayıb ki, erməni rejissor Vardanyanın "siyasi qisas qurbanı" kimi saxlanıldığını iddia edib. Onun sözlərinə görə, guya Azərbaycan bununla nəinki Vardanyanı, Ermənistan Respublikasını və erməni xalqını aşağılayır. "Onlar erməni xalqını mənəvi mənada diz çökdürməyə və adamı psixoloji cəhətdən məhv etməyə çalışırlar", - deyə Petrosyan sayıqlayıb. Ardınca erməni rejissor bildirib ki, Ruben Allaha bağlı adamdır: "Ona görə də biz ona güc, cəsarət və müqavimət göstərmək bacarığı arzulamalıyıq".

Artıq Vardanyanın müdafiə kampaniyası üçün heç bir normal iş görə bilməyən çevrəsi dua etməyə, onu dözümlü olmağa çağırır. Bu da separatizmə dəstək vermiş erməni cinayətkarın ətrafının reallıqla barışmasından irəli gəlir. Hərçənd ailəsi nüfuzlu Qərb KİV-lərində müsahibələr verir, bir ara həşir qoparırdı.

Üstəlik, erməni cəmiyyəti də Vardanyan üçün ayağa qalxmadı. Bu müddət ərzində onun azad edilməsi tələbi ilə hər hansı izdihamlı mitinq keçirilməyib. Çünki Vardanyan erməni xalqı üçün yad ünsürdür və ölkəsinə heç bir faydası dəyməyib. O, Rusiyada yaşamış milyarderdir və heç vaxt olmadığı Qarabağda qanunsuz şəkildə məskunlaşıb, xunta rejiminə dəstək verirdi.

Ermənilər Vardanyana niyə qahmar çıxmadı? Hətta müxalifət, Köçəryan və Sərkisyan da ondan danışmır. Səbəb nədir?

**Siyasi ekspert Fuad Əliyev** Vardanyanın layiqli cəzasını alacağını gözləyir. Onun fikrincə, onun barəsində hökm elan edildikdən sonra növbəti kampaniya başlana bilər. Lakin bunun da heç bir effekt verməyəcəyini proqnozlaşdıran F. Əliyev güman edir ki, Vardanyan bitmiş fiqurdur: "Onu müdafiə edən erməni xalqı deyil, ayrı-ayrı qruplardır. Onlar sifariş əsasında hərəkət edir. Vardanyan ABŞ və Rusiya üçün agent işləmiş, ikitərəfli casusdur. Ona görə müxtəlif cinahlardan dəstək verənlər olur. Amma rəsmi səviyyədə müdafiəsi yoxdur".

**F.Əliyevə görə, Ruben Qarabağda cinayətlər törədib və məhkəmə prosesində əməlləri sübut olunur:** "Əgər onun Ermənistanda hörməti olsaydı, xalq dəstək verərdi. Hətta revanşist müxalifət də ona qahmar çıxmadı. Çünki Vardanyan erməni müxalifətinə və xalqına yaxın olmayıb. Onun fəaliyyəti Ermənistanla bağlı olmayıb. Nə üçün ermənilər onu müdafiə eləsinlər ki?! Bu adam qəfildən Qarabağda peyda olub, hansısa dairələrin sifarişi ilə Xankəndidə fəaliyyət göstərib, nəticəsi də göz qabağındadır. Yəni Köçəryan belə onu müdafiə etmirsə, ermənilər Rubeni özlərindən bilmirlər".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli** Vardanyanı azı 20 il həbs cəzası gözlədiyini proqnozlaşdırır. Onun qənaətinə görə, Vardanyanın ilk cinayəti başqa dövlətin vətəndaşı ikən Azərbaycana gəlib burada Ermənistanın belə müstəqilliyini tanımadığı "artsax" adlı oyuncaq hökumətdə qondarma vəzifə tutmasıdır: "Bu şəxs sərhədi qanunsuz keçib, dövlətin içində dövlət qurmaq istəyənlərə qoşulub, terroru və separatizmi maliyyələşdirib, Xankəndi mitinqində dinc ermənilərə silaha sarılmağa çağırıb, Azərbaycan rəhbərliyini təhdid edib, yəni bir yox, bir sıra cinayət əməllərində ittiham olunur. Sadəcə, milyarder olub və ümid edir ki, həbsi siyasiləşəcək. Amma Azərbaycan aparılan istintaq və məhkəmə prosesində sübut edir ki, onun tutulmasında siyasi motiv yoxdur. Buna görə çevrəsi dua və arzu edir".

**S.Əsədli rusperəst müxalifətin də ona sahib çıxmamasında iki səbəb görür:** "Birincisi, həmin qüvvələr Kremlə bağlıdır və özləri siyasi dəyişiklik gözləyir. Onlar ümid edirlər ki, Ermənistanda iqtidar gedəcəksə, yenidən hakimiyyətə yiyələnəcəklər. Bunu da Vardanyanla bölüşmək istəmədilər. İkincisi, bu adamla müxalifətin ciddi təmasları, əvvəllər dərin əlaqələri olmayıb. Ruben milyarder idi və öz yoluyla gedirdi. Bir sözlə, keçmiş "Qarabağ klanı"nı Vardanyana bağlayan səbəb olmayıb. Yalnız bir oxşarlıq var - hər iki tərəf Rusiya ilə bağlı idi. Bu da nəyisə dəyişmirdi. Ona görə Ruben Xankəndidə siyasi şou ilə məşğul olanda Köçəryan və Sərkisyan səsini o qədər də çıxarmırdı. İndi də müəmmalı sükut var. Üstəgəl, Paşinyan onları yerinə oturdub".

Xatırladaq ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi davam edir. Məhkəmənin növbəti iclası iyunun 10-na təyin olunub.

Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 97 (8707) 5 iyun 2025

# Bakının o qərarından sonra... - Rusiyanın casus yuvalarının sonu

## Azərbaycanın ardınca bir sıra ölkələrdə də “Rus evi”ni yıxmağa başlayıblar; Moskvanın “gizli göz”ləri qapadılır, bəs Kreml “domino effekti”ndən nəticə çıxaracaqmı?




**Almaniya parlamentinin (Bundestaq) Kəşfiyyat Xidmətlərinə Nəzarət Komitəsinin sədr müavini Roderix Kisevetter ölkədəki “Rus evi”ni bağlamağa çağırıb. “Yeni Müsavat” xəbər verir ki, Bundestaq üzvünə görə, həmin obyekti qapatmaq və daha çox rus diplomatı ölkədən qovmaq lazımdır.**

Deputat son zamanlar Rusiyanın kiberhücumları və təxribatlarının nəzərəçarpacaq dərəcədə artması ilə əlaqədar tədbirlər görməyi də təklif edib. “Biz yerdə qalan agentləri və diplomatları ölkədən çıxarmalıyıq”, - komitə sədrinin müavini yerli mediaya müsahibəsində deyib. O, həmçinin xarici təsirləri, xarici dezinformasiya və təbliğatı məhdudlaşdırmaq yönündə əlavə tədbirlər görməyin zəruriliyinə diqqət çəkib. “Məsələn, turistlər üçün viza qadağası, təbliğatçıların çıxışlarına qadağa qoyulması və təbliğati portalların bağlanması mümkündür”, - siyasətçi qeyd edib. Bəzi məlumatlara görə, bu mərkəzin nümayəndələrindən biri “Vaqner” hərbiləşdirilmiş dəstəsinin üzvlərindən biridir. Məsələn, “Yaşıllar” Partiyasından olan keçmiş Bundestaq deputatı Folker Bek Almaniyanın keçmiş xarici işlər naziri Annalena Berboka Berlindəki “Rus evi” - Rusiya Elm və Mədəniyyət Evinin əməkdaşlarının ölkədə arzuolunmaz elan edilməsi tələbi ilə məktubla müraciət edib.

Bəlli olduğu kimi, lap öncə Azərbaycan, ardınca Moldova, Fransa, Suriya (yeni hökumət) analoji addımlar atıb. Hətta Ermənistan da “Rus evi”ni qapatmaq yönündə qərar verməyə hazırlaşır. Qırğızıstanda isə “Rus evi”nin əməkdaşına qarşı cinayət işi qaldırılıb.

“Rus ev”lərinin bir-bir qapanması rəsmi Bakının qərarının nə qədər doğru və legitim olduğunu bir daha isbatlayır. Yenə qənaət hasil olur ki, əslində “Rus ev”ləri hansısa mədəni-humanitar məqsədlər üçün yox, məhz casus missiyasını yerinə yetirmək üçün yaradılıb. Yəni faktiki surətdə bu, Moskvanın ölkələrdəki “gizli göz”ləridir ki var.

Bəs rəsmi Moskva baş verənlərdən nəticə çıxaracaqmı? Bakıdakı “Rus evi” açıla bilərmi və hansı şərtlərlə?

Yada salaq ki, bu mərkəzin agentura şəbəkəsinin ocağı olduğunu ilk dəfə “Baku Tv” iddia edib. Materialda vurğulanıb ki, “Rossotrudniçestvo” adlanan qurumun tabeliyində olan “Rus ev”ləri ölkəsinin müxtəlif kəşfiyyat orqanlarından aldıqları əmr və tapşırıqlar əsasında fəaliyyət göstərir, bir növ, casusluqla məşğul olurlar. Ortaya qoyulan faktlarla bağlı hüquqi müstəvidə tədbirlər görülməsi bu “evlər”ə nəzarət edən “Rosssotrudniçestvo”nun rəhbəri Yevgeni Primakovdan istənilib.

O ki qaldı “Rossotrudniçestvo”ya, yaxın və uzaq xaricdə yaşayan soydaşları arasında əməkdaşlıq, rus dilinin yayılması və s. məsələləri prioritet elan edən qurumun fəaliyyəti heç də şəffaflıq üzərində qurulmayıb. Onun dünyanın 70-dən artıq ölkəsində 90-a yaxın nümayəndəliyi fəaliyyət göstərir. 1925-ci ildə SSRİ-nin müvafiq strukturlarının xeyir-duası ilə təsis edilib. Şübhəsiz ki, hədəf də casusluq və “ağ qvardiya”nın xaricdə kök salmış nümayəndələrinin məhv edilməsi, rus icmasının daha çox yaşadığı yerlərdə aktiv fəaliyyət olub.

Təşkilat SSRİ-nin təhlükəsizlik orqanları, o cümlədən ovaxtkı NKVD, sonralar isə DTK və Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsindən aldığı əmr və tapşırıqlara uyğun fəaliyyət göstərib. SSRİ dağıldıqdan sonra “Rossotrudniçestvo”ya çevrilən təşkilat fəaliyyətini yeni Rusiya hakimiyyəti ilə davam etdirib. Dəfələrlə adı casus qalmaqallarında çəkilib.

90-a yaxın ölkədə fəaliyyət göstərən təşkilat məhz casusluğa görə altı ölkədə fəaliyyətini dayandırmalı olub. Avropanın beş ölkəsində rus mədəniyyət və elm mərkəzləri - “Rus evləri” bağlanıb. Bunlar Sloveniya, Xorvatiya, Makedoniya, Monteneqro və Rumıniyadır.

2023-cü ilin əvvəlində Buxarestdəki “Rus evi”nin fəaliyyəti Rumıniya hakimiyyətinin qərarı ilə dayandırılıb.

Danimarka “İnformation” qəzetinin dərc etdiyi məlumatda ölkədə Rusiya səfirliyi və “Rossotrudniçestvo”nun örtüyü altında işləyən Baş Kəşfiyyat İdarəsi zabitlərinin adları göstərilmişdi: “Elm və mədəniyyət mərkəzi kimi təqdim olunan Danimarkadakı ”Rus evi" uzun illər Rusiya kəşfiyyatı üçün örtük rolunu oynayıb. Burada keçirilən tədbirlərin foto və videomateriallarını araşdıran jurnalistlər qovulmuş casuslardan bəzilərini aşkar ediblər".

Son zamanlarda isə Primakov, habelə Rusiya XİN rəsmisi Zaxarova, hətta Kreml sözçüsü Peskov “Rus evi”nin Bakıdakı fəaliyyətinin bərpası üçün danışıqlar aparıldığını, problemin müsbət həllini tapacağına ümid bəslədiklərini söyləmişdilər.

Amma bu faktlar - yəni bir sıra ölkələrdə bu agent yuvasının qapadılması göstərir ki, Azərbaycan həm doğru qərar verib, həm də bərpasına lüzum yoxdur.

Ekspertlər necə görürlər, Bakı-Moskva danışıqlarında sözügedən mərkəzin fəaliyyətini davam etdirməsi mümkün ola bilərmi?

**Professor Qabil Hüseynli** “Yeni Müsavat”a açıqlamasında “Rus evi”nin fəaliyyətinə ehtiyac görmədiyini söyləyib. Onun qənaəti budur ki, Rusiyanın Azərbaycanda olan səfirliyinin nəzdində mədəniyyət mərkəzi fəaliyyət göstərir və bu da kifayət edir. Professor Primakovun və ümumilikdə Kremlin bu məsələdə təkid etməsinin məntiqini görmür, sadəcə, siyasi niyyət olduğunu düşünür: “Moskva Bakının bu qərarını özünə qarşı demarş sayır. Onlar həzm edə bilmirlər ki, "Rus evi" adlanan yeri necə qapatmaq olar. Ancaq mediada səslənən iddialara rəğmən rəsmi Bakı heç də bəyan etməyib ki, həmin mərkəz casus yuvasıdır. Sadəcə, qeydiyyat problemi ilə əlaqələndirilib. Əgər qeydiyyat məsələsində tələblər sahmana salınarsa, bu mərkəzin işinə yenidən baxılması istisna deyil. Ancaq bunu rəsmi izahla ehtimal edə bilərik. Yəni Azərbaycan hakimiyyətinin “Rus evi”nin qayıdışını arzuladığını düşünmürəm. Madam ki, bizə qədər bir sıra ölkələr bu addımı atıb, son olaraq da Qırğızıstan, ardınca Almaniya tədbirlər görüb. Deməli, “od olmayan yerdən tüstü çıxmaz”. Bu səbəbdən Bakı zamanında doğru qərar verib".

**Q.Hüseynlinin fikrincə, Rusiya təhsil, mədəniyyət, məktəblərdə rus bölməsi adı ilə özünün təsir dairəsini genişləndirməyə çalışır:** “Bu, imperiya zehniyyəti və təbliğat üsullarıdır. Onlar ya tanklarla, ya da bu şəkildə işğala əl atır. Amma doktrinanı dəyişmək məcburiyyətindədir. Ukrayna müharibəsi belə diktə edir. Dünya dəyişib və bu təfəkkürlə, casus yuvaları ilə təsir gücünü saxlamaq çətindir”.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**




# Paşinyan-kilsə qarşıdurması - Azərbaycanın diplomatik manevr imkanları artır

**Ermənistanda baş nazir Nikol Paşinyanla kilsə arasındakı münasibətlər getdikcə daha sərtləşir. Nikol Paşinyanın kilsə əleyhinə paylaşımları sosial şəbəkələrin erməni seqmentində fəal müzakirə olunur. Paşinyan kilsə və din xadimlərini tənqid edərək hətta nalayiq ifadələrdən istifadə etməkdən belə çəkinmir. O, erməni Apostol kilsəsi başda olmaqla, erməni ruhaniliyini hədəfə alır.**

**Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı, siyasi təhlilçi Aqşin Kərimov** Musavat.com-a açıqlamasında Paşinyanla kilsə arasındakı qarşıdurmanı Azərbaycanın maraqları kontekstindən şərh edib.

“Nikol Paşinyanın erməniliyin episentri və ideya generatoru olan kilsəni hədəfə alması təkcə ölkədaxili siyasi rəqabətin nəticəsi deyil. Bu hadisə Azərbaycanın Ermənistanın təhlükəsizlik, siyasi, hüquqi aparatını sürətli və məhsuldar bir şəkildə öz kriteriyalarına tabe etdirməyin motivlərini də əks etdirir”, - deyə ekspert əlavə edib.

**STM əməkdaşı bildirib ki, əsas detal budur: Azərbaycan İrəvan qazısının fəaliyyətini bərpa edən qərar verdikdən sonra Paşinyan kilsəyə qarşı leksikonunu kəskinləşdirdi, sürpriz və sensasion detallar açıqladı.**

“Bu məsələ Azərbaycanın xarici siyasətdə tarixi dini rütbələrə istinad kontekstində yeni tendensiya yaradır. Konseptual olaraq din nöqteyi-nəzərindən məsələni belə qiymətləndirərdim: Azərbaycan dağıdıcı və regional pozuculuqla məşğul olan erməni kilsə hərəkatına qarşı həmrəyliyə, sülhə səsləyən İslam inancını ortaya qoyur. Başqa yandan Azərbaycan Ermənistanın kilsə hərəkatına qarşı özünün irəli sürdüyü iki məqsədi vahid bir portfeldə birləşdirir.

Birincisi, qərbi azərbaycanlıların qayıdışı üçün Ermənistan daxilində ictimai-siyasi hazırlıqlar lazımdır. İrəvan qazısının fəaliyyətinin bərpa edilməsi bu məqsədlə irəliyə doğru addımlara motivasiya verir. İkincisi, Nikol Paşinyanın kilsəyə qarşı hücumlarına Azərbaycan tərəfindən dəstəklənən mənalar yüklənməsi üfüqdə görünə bilər”, - deyə o əlavə edib.

**Şərhçi düşünür ki, Azərbaycan İrəvan qazısının fəaliyyətinin yenidən təşkili ilə Paşinyanın kilsə əleyhinə bəyanatlarını eyni məqsəddə birləşdirən siyasəti elan etməkdə maraqlı tərəf kimi çıxış edə bilər.** “Bu, Azərbaycanın Ermənistan qarşısındakı şərtlər seriyasında yumşaq gücü olmaqla yanaşı, Ermənistan daxilindəki formasiyanı dəyişdirmək metodlarının işləkliyi üçün yeni istiqamətlər yaradacaq”, - deyə A.Kərimov fikrini yekunlaşdırıb.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 97 (8707) 5 iyun 2025

# Azərbaycanın OPEC-dən gözləntisi - neft hasilatımız nə vaxta qədər azalacaq?

**Azərbaycan Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) iyulda keçirilməsi nəzərdə tutulan beynəlxalq seminarına dəvət alıb. Energetika Nazirliyindən verilən məlumata görə, bu məsələ Bakı Enerji Həftəsi çərçivəsində energetika naziri Pərviz Şahbazovla OPEC-in baş katibi Haysam Əl-Qais arasında keçirilən danışıqlar zamanı müzakirə olunub.**

Tərəflər OPEC+ formatında əməkdaşlıqdan məmnunluq ifadə edib, Azərbaycanın neft bazarının tənzimlənməsində rolu qiymətləndirilib. Enerjiyə tələbatın artması şəraitində karbohidrogen ehtiyatlarına, o cümlədən neft sənayesinə investisiyaların əhəmiyyəti də qeyd edilib. Söhbət zamanı qlobal neft bazarının inkişaf tendensiyaları, OPEC və qeyri-OPEC ölkələri tərəfindən neft hasilatı üzrə öhdəliklərin yerinə yetirilməsi səviyyəsi, o cümlədən neftin enerji balansında gələcək rolu müzakirə edilib.

Qeyd edək ki, Azərbaycan OPEK üzvü olmasa da, təşkilatla yaxından əməkdaşlıq edir. Eyni zamanda OPEK-in təşəbbüskarı olduğu OPEK+ razılaşmasının iştirakçısıdır. 2021-ci ildən etibarən ölkəmiz razılaşma çərçivəsində müəyyən olunan hasilat limitinə tam əməl edir.

Mayın 28-də OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin 39-cu iclasında gündəlik neft hasilatının 2026-cı ilin sonuna qədər sabit qalması ilə bağlı qərara Azərbaycan da öz dəstəyini ifadə edib. Energetika Nazirliyindən verilən məlumata əsasən Azərbaycanın gündəlik 551 min barel həcmində olan mövcud xam neft hasilatı kvotası bu dövrdə sabit saxlanılacaq.

Nazirliyin açıqladığı məlumata görə, bu ilin aprel ayında Azərbaycanda gündəlik neft hasilatı 465 min barel təşkil edib ki, bu da OPEK+ razılaşması çərçivəsində müəyyən olunan kvotadan 86 min barel azdır. Kvotadan aşağı hasilat ölkədə istismar olunan neft yataqlarının təbii qocalması ilə bağlıdır. Rəsmi rəqəmlərə əsasən bu ilin yanvar-aprel aylarında Azərbaycanda 9,1 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın 5,3 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 1,3 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,2 milyon tonu (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 2,3 milyon ton təşkil edib.

Bu dövr ərzində 7,8 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 6,6 milyon tonu konsorsiumların, 1 milyon tonu SOCAR-ın, 0,2 milyon tonu isə "Abşeron" yatağının payına düşüb.




Xatırladaq ki, 2024-cü ilin yanvar - aprel aylarında ölkədə 9,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilmişdi. Neft hasilatının 5,5 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 1,4 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,2 mln tonu (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 2,5 milyon ton təşkil edib.

Ötən ilin 4 ayında xaricə 7,9 milyon ton neft (kondensatla birlikdə) satılıb. Bunun 6,9 milyon tonu konsorsiumun, 1 milyon tonu isə SOCAR-ın payına düşüb.

Beləliklə, aydın olur ki, bu ilin dörd ayında Azərbaycanda neft hasilatı 500 min ton azalıb. Azalmanın 200 min tonu AÇG, 100 min tonu "Şahdəniz", 200 min tonu isə SOCAR üzrə qeydə alınıb.

İxracda qeydə alınan 100 min tonun hamısı konsorsiumların hesabınadır.

Azərbaycan hökuməti, milli neft şirkəti olan SOCAR və yataqlarda işləyən xarici şirkətlərlə əldə olunan razılaşmaya əsasən neft hasilatında düşmə sürətini azaltmaq üçün bir sıra addımlar atılır. Bu addımlardan biri ölkənin ən böyük neft yatağı olan "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları yerləşən "Mərkəzi Azəri" platformasında yeni qaz kompressor qurğusunun quraşdırılmasıdır. BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrellin açıqladığı məlumata görə, bu layihə AÇG-də neft hasilatının sürətinin azalması və stabilləşdirilməsi tədbirləri çərçivəsində həyata keçiriləcək.

Bildirilib ki, yeni qurğu laylara qazın vurma həcmini artırmağa imkan verəcək. Qordon Birrell qeyd edib ki, AÇG-də hasilatın düşmə sürətini azaltmaq məqsədi ilə bir sıra tədbirlər görülür. Bu tədbirlər sırasında, təzyiqin artırılması üçün laylara daha çox su və qaz vurulur.

SOCAR daxilində isə ötən bir il ərzində müasir suvurma üsullarının tətbiqi ilə bağlı əhəmiyyətli layihələr icra edilib və gələcəkdə bu istiqamətdəki layihələrin daha da genişləndirilməsi qarşıya hədəf qoyulub. **SOCAR-ın "Azneft" İstehsalat Birliyinin baş direktoru Əli Qurbanov**un sözlərinə görə, hasilatın stabilləşdirilməsi istiqamətində mühüm hesab edilən suvurma prosesinin "Günəşli" və "Neft Daşları" ilə yanaşı, digər yataqlarda da tətbiq edilməsi vacib sayılır, bununla bağlı planlama aparılır. Artıq "Pirallahı" yatağında suvurma sisteminin qurulması ilə əlaqədar ilkin addımlar atılır. "Qərbi Abşeron", "Lökbatan" və s. yataqlarda da mühüm layihələrin icrası planlaşdırılır: "Fəaliyyət strategiyamıza uyğun istismar üsullarının optimallaşdırılması prioritetlər sırasındadır. Belə ki, istismar üsullarının optimallaşdırılması hesabına hasilatın dayanıqlılığının təmini və artırılması hədəflənib. Quyularda istismar üsullarının dəyişdirilməsi ilə bağlı mühüm layihələr icra edilir".

O əlavə edib ki, quyularda istismar üsüllarının dəyişdirilməsi ilə bağlı mühüm layihələr icra edilir. 2024-cü ildə 46 quyuda üsul dəyişikliyi icra edilib, orta gündəlik səmərə 15-20 faiz artıb. Quyuların təmirlərarası müddəti 90 gündən 365 günə kimi uzanıb. Bu da mexaniki üsulla işləyən quyunun davamlı istismarının il ərzində 60 günə qədər uzanması ilə nəticələnib. 2025-ci ildə 226 quyuda istismar üsullarının dəyişdirilməsi nəzərdə tutulur. Əldə olunması gözlənilən nəticə isə illik 50 min tona yaxın neft hasilatı ilə ölçülür.

**"Neft Daşları" və "Palçıq Pilpiləsi" yataqlarında ötən aylarda həyata keçirilən uğurlu tədbirlər nəticəsində hazırda gündəlik neft hasilatı 3300 tona qədər çatdırılıb:** "Bu da son 34 ildə qazanılan ən yüksək göstəricidir. 2025-ci ilin də elə bu templə-rekord nəticələrlə (1,2 milyon tondan çox neft) tamamlanması qarşıda duran əsas hədəflərdən biridir".

Onun sözlərinə görə, dünyada sənaye üsulu ilə ilk neftin çıxarıldığı, 180 ilə yaxın yaşı olan "Bibiheybət" yatağında bu gün böyük dinamika müşahidə edilir. Bu ilin aprel ayında 503 işlək quyu ilə gündəlik neft hasilatı 400 tona çatdırılıb. Bu rəqəmlər NQÇİ-nin yaxın 30 illik fəaliyyəti ərzində ən yüksək hasilat göstəriciləridir.

Əli Qurbanov qeyd edib ki, Ə.C.Əmirov adına NQÇİ-də də əldə olunan nəticələr peşəkar komanda işinin uğurları sırasındadır. Hazırda NQÇİ-nin gündəlik neft hasilatı 270 tondur, bu rəqəmin ilin sonuna qədər 310 tona kimi artırılması (35 faiz) hədəflənib. Qeyd edilən bu rəqəm NQÇİ-nin yaxın 30 illik fəaliyyəti ərzində ən yüksək hasilatdır.

Bundan əlavə, iki gün əvvəl Bakı Enerji Forumu çərçivəsində bp şirkəti ilə SOCAR arasında Böyük Britaniya şirkətinin "Qarabağ" yatağının işlənməsi layihəsinə qoşulmasına dair müqavilə imzalanıb. Müqaviləyə əsasən bp Bakıdan 120 km şərqdə, Günəşli yatağından 20-25 km məsafədə, suyun 150-200 metr dərinliyində yerləşən "Qarabağ" neft yatağının kəşfiyyatı və işlənməsi layihəsində 35 faiz pay alıb. Bu, müstəqillik dövründə Azərbaycanda kəşf olunan ilk neft yatağıdır. 2020-ci ildə SOCAR və Norveçin Equinor şirkəti yatağın açıldığını elan ediblər. Yatağın ilkin qiymətləndirilmiş geoloji ehtiyatları 60 milyon ton neftdən artıqdır. Yatağın işlənməsinə dair müqavilə 1995-ci ildə imzalanmışdı. 2023-cü ilin dekabrında Equinor 50 faizlik iştirak payını SOCAR-a sataraq yataqdan çıxıb.

**BP-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrellin dediyinə görə, "Qarabağ" yatağında yaradılacaq infrastruktur "Azəri-Çıraq-Günəşli" (AÇG) blokunda mövcüd infrastruktura qoşulacaq. Onun sözlərinə görə, qeyd olunan proses "Qarabağ" yatağının işlənilməsinə tez bir zamanda başlamağa imkan verəcək:** "Plana görə, "Qarabağ"dan ilk neftin çıxarılması 2029-cu ildə baş tutacaq. Çox güman ki, yataqda kiçik platforma quraşdırılacaq və bu platforma AÇG-nin mövcud infrastrukturuna qoşulacaq".

Onu da qeyd edək ki, Azərbaycan hökumətinin hazırladığı ortamüddətli büdcə çərçivə sənədinə 2029-cu ilədək hasilatın azalması səbəbindən neft-qaz sektorundan dövlət büdcəsinə daxilolmaların azalacağına dair gözləntilər daxil edilib. Belə ki, 2029-cu ildə neft və qaz hasilatının artacağı proqnozlaşdırılır. İqtisadiyyat Nazirliyinin təqdim etdiyi məlumatlara əsasən, 2025-ci ildə neft hasilatının azalacağına baxmayaraq qaz hasilatının artması sektorun inkişafına artırıcı təsir edəcək. 2027-2029-cu illərdə neft və əmtəəlik qaz hasilatı (2029-cu il istisna olmaqla) üzrə azalmanın davam etməsi nəzərə alınaraq neft-qaz sektorunda azalma proqnozlaşdırılıb.

Buna uyğun olaraq 2029-cu ildə qeyri-neft/qaz gəlirlərinin dövlət büdcəsinin gəlirlərindəki payı 2026-cı ilin göstəricisi ilə müqayisədə 6,9 faiz bənd artaraq 61,9 faiz, mütləq ifadədə isə 19,4 faiz artaraq 25,8 milyard manat təşkil edəcək. Eyni zamanda dövlət büdcəsinin neft-qaz gəlirləri 2026-cı illə müqayisədə 10,3 faiz azalaraq dövrün sonunda 15,8 milyard manata qədər enəcək. Müvafiq olaraq 2025-ci ildə neft-qaz sektorunun ÜDM-ə töhfəsinin 37,3 milyard manat (28,5 faiz), 2026-cı ildə 34,4 milyard manat (25,3 faiz), 2027-ci ildə 34,1 milyard manat (23,7 faiz), 2028-ci ildə 32,5 milyard manat (21,4 faiz), 2029-cu ildə isə 33,5 milyard manat (20,6 faiz) təşkil edəcəyi gözlənilir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 97 (8707) 5 iyun 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Məktəblərdə Vətən sevgisi: formadan məzmuna keçid zərurəti

## Mütəxəssislər Qarabağ zəfərindən sonra kompleks və sistemli yanaşmanın vacibliyini vurğulayır

**Vətən sevgisi hər bir insanın qəlbində doğulandan başlayaraq formalaşan ən ülvi hisslərdəndir. Xalqın milli ruhunu yaşadan, onun kimliyini qoruyan bu hissin tərbiyəsi, xüsusilə gənc nəslin formalaşmasında mühüm rol oynayır. Azərbaycanda məktəblərdə vətənpərvərlik tərbiyəsi dövlətin əsas prioritetlərindən biri olaraq, müxtəlif tədris və tərbiyə formaları ilə sistemli şəkildə həyata keçirilir.**

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev** "Yeni Müsavat"a deyib ki, vətənpərvərlik mövzusunda ayrıca tədrisə ehtiyac var.

**Onun sözlərinə görə, bu istiqamətdə təbliğat işi aşağı siniflərdən başlanmalıdır:** "Təbii ki, bizim gənclər vətənpərvərdir. 44 günlük müharibəyə könüllü gedən minlərlə gənc bunu sübut etdi. Yaşlı nəsildə tərəddüd var idi ki, indiki cavanlar döyüşməzlər, " Z" nəslinin uşaqlarıdır, sosial mediaya, əyləncəyə aludə olublar... Amma onlar bunun yanlış təsəvvür olduğunu sübut etdilər. Bununla belə, yeni nəslin vətənpərvərlik duyğularının inkişafı üçün daha kompleks işlər aparılmalıdır. Çünki bəzi hallarda kənar təsirlərə uyurlar, xaricdən ölkəmizə ixrac olunan səhv ideyaların arxasınca düşürlər. O baxımdan daha ciddi iş aparılmalıdır. Eyni zamanda dövlətin bu sahədə konkret proqramı olmalıdır".

**E.Mehdiyev bildirib ki, vətənpərvər nəsil yetişdirməsək, tarixin növbəti mərhələlərində ciddi boşluqlar meydana gələ bilər:** "Cənab Prezident məsələ qaldırdı ki, yeni ideya verin. Qarabağın işğalı faktına son qoyduq, xalqın milli dərdi bitdi, indi yeni ideya lazımdır. Məncə, yeni ideyalardan biri də gənclərin və yeniyetmələrin milli ruhda böyüməsi üçün konsepsiya qəbul edilməsi ola bilər".

**Təhsil eksperti Kamran Əsədov isə fikirlərini belə izah edib:** "Məktəblərdə vətənpərvərlik hisslərinin tərbiyəsi Azərbaycan təhsil sisteminin əsas ideoloji istiqamətlərindən biri kimi müəyyən edilsə də, bu sahədə tətbiq olunan mexanizmlər, metodoloji yanaşmalar və pedaqoji vasitələr həm məzmun, həm də forma baxımından dərin təhlil tələb edir. Vətənpərvərlik təkcə tarixi bilik və simvollarla məhdudlaşan bir kateqoriya deyil, şəxsiyyətin milli-mənəvi dəyərlərə, dövlət və cəmiyyətə münasibətini, sosial məsuliyyətini və milli identikliyi formalaşdıran çoxsahəli psixopedaqoji prosesdir. Təəssüf ki, bu proses Azərbaycan məktəblərində çox zaman formal, tədbirvari və səthi şəkildə həyata keçirilir.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun 4.1.3-cü maddəsində qeyd olunur ki, təhsil milli və ümumbəşəri dəyərlərə əsaslanmalı, şəxsiyyətin və cəmiyyətin harmonik inkişafına xidmət etməlidir. Həmçinin "Ümumtəhsil məktəblərində tərbiyə işinin aparılması haqqında" təlimatda vətənpərvərlik tərbiyəsi əsas istiqamətlərdən biri kimi müəyyən olunmuş, bu sahədə məktəb psixoloqlarının, sinif rəhbərlərinin və tərbiyə işləri üzrə direktor müavinlərinin rolu vurğulanıb. Lakin bu normativ sənədlər məktəb praktikası ilə uzlaşmadıqda və ya onların tətbiqi səmərəsiz olduqda, hüquqi baza real təsir gücünü itirir. 2021-ci ildə "Azərbaycan Gəncliyi və Vətənpərvərlik Tərbiyəsi" adlı sosioloji araşdırmaya əsasən, şagirdlərin yalnız 44%-i öz məktəblərində aparılan vətənpərvərlik işlərini yetərli hesab edib. Həmçinin sorğuda iştirak edən 9-cu və 11-ci sinif şagirdlərinin 38%-i belə tədbirlərin yalnız "bayramlarda və icbari proqramlarda" keçirildiyini bildirib.



Bu statistika göstərir ki, vətənpərvərlik tərbiyəsi sistemli və gündəlik tərbiyə prosesinin deyil, daha çox simvolik və epizodik tədbirlərin obyektinə çevrilib. Məktəblərdə bu sahədə aparılan işlər əsasən aşağıdakı formalarda icra olunur: dövlət bayramları və anım günlərinə həsr olunmuş tədbirlər, açıq dərslər, ədəbi-bədii kompozisiyalar, məktəbdəki guşələrdə qəhrəmanların şəkilləri və tərcümeyi-hallarının nümayişi. Bu fəaliyyətlər forma baxımından təqdirəlayiq sayılsa da, məzmun baxımından çox zaman şagirdin şəxsi təcrübəsi ilə əlaqələndirilmir, müzakirə və refleksiya imkanları yaradılmır. Nəticədə şagird vətənpərvərliyi duyğu yox, əzbərlənmiş informasiya kimi qəbul edir. Əlavə olaraq, dərsliklərdə və proqramlarda bu mövzuya ayrılmış bölmələr çox zaman tarixi faktlarla, milli qəhrəmanların adı ilə və ya siyasi ritorika ilə məhdudlaşır. Halbuki vətənpərvərlik təkcə hərbi qəhrəmanlıqla deyil, əmək əxlaqı, sosial məsuliyyət, milli mədəniyyətə bağlılıq, ekoloji şüur və dövlətə qarşı vətəndaş münasibətilə formalaşmalıdır".

**Dünya təcrübəsinə diqqət çəkən ekspert qeyd edib ki, Finlandiya və Yaponiyada vətənpərvərlik məktəb mühitinin özündə sistemli şəkildə tətbiq olunur:** "Məsələn, Yaponiyada ibtidai sinifdən etibarən şagirdlər məktəb binasının təmizliyində, bayrağın qaldırılması mərasimində və məktəbdaxili sosial qaydaların tətbiqində birbaşa iştirak edirlər. Bu, onların vətənə, dövlətə və ictimai mülkiyyətə məsuliyyət hissini praktik şəkildə formalaşdırır. Bizdə isə bu tip fəaliyyətlər ya yoxdur, ya da pilot xarakter daşıyır. Müsbət məqam ondan ibarətdir ki, 2020-ci il Vətən müharibəsindən sonra bu sahədə müəyyən canlanma müşahidə olunur. Məktəblərdə şəhid guşələrinin yaradılması, qazilərlə görüşlərin təşkili, "Şəhidlərə məktub", "Vətənim Azərbaycan" kimi layihələrin icrası emosional təsir baxımından önəmli addımlardır. Bu tədbirlər bəzi hallarda şagirdlərin real təmas və təəssürat yaşamasına səbəb olur. Lakin bu təşəbbüslərin çoxu layihəyönümlü olduğundan, onların davamlılığı və sistemliliyi təmin olunmur. Hazırkı yanaşma dəyişmədikcə məktəblərdə vətənpərvərlik tərbiyəsi şagirdin real həyat davranışına və şəxsiyyət inkişafına təsir edə bilməyəcək. Bu sahənin gücləndirilməsi üçün ilk növbədə pedaqoji kadrlara bu istiqamətdə metodiki hazırlıq verilməli, kurikulumda vətənpərvərlik anlayışı fənlərarası inteqrasiyanın mərkəzinə yerləşdirilməlidir. Eyni zamanda sosial fəaliyyətlər - könüllülük, xeyriyyəçilik, ictimai layihələr-məktəb mühitinə daxil edilməli və şagirdlərin gündəlik iştirakına çevrilməlidir.

Vətənpərvərlik nə təkcə savaşda, nə də yalnız bayramda olur. O, şagirdin həyat tərzinə, qərarlarına, dəyərlərinə və davranışına hopmuş şüurlu mövqedir. Məktəb bu mövqeni formalaşdırmaq üçün sadəcə rəmzlərə, tədbirə deyil, məzmuna, sistemə söykənməlidir. Təhsilin yalnız məlumat ötürən yox, şəxsiyyət formalaşdıran funksiya daşıdığı nəzərə alınsa, vətənpərvərlik tərbiyəsi bu missiyanın ideoloji özəyinə çevrilməlidir. Əks halda, şüarlarla bəslənən gənc Vətəni real həyatda müdafiə edə bilməz".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ

# Ölkədə bir ildə bu qədər məktəb bağlanıb - səbəb



**Azərbaycanda 2024-2025-ci tədris ilinin əvvəlində 4324 məktəb olub. Musavat.com-un Dövlət Statistika Komitəsindən əldə etdiyi məlumata görə, məktəblərin sayı ötən illə müqayisədə azalıb.**

Belə ki, 2023-2024-cü tədris ilinin əvvəlində 4388 məktəb fəaliyyət göstərib. Yeni 1 il ərzində ölkədə olan məktəblərin sayı 64 ədəd azalıb. Rayonlar üzrə məktəb sayına gəldikdə, rəsmi statistik məlumatlara görə, Lerikdə 9, Ağsuda 8, Qubada 7, Füzuli, Qax, Yardımlı, Ağdaş rayonlarında 4, Şamaxı, Şəmkir, Balakən rayonlarında 3 məktəb bağlanıb. Bir neçə rayonda isə məktəblərin sayında 1-2 azalma qeydə alınıb.

Azalma əsasən ibtidai məktəblərdə qeydə alınıb. Məlumata görə, ötən tədris ilinin əvvəlində 292 ibtidai məktəb, bu tədris ilinin əvvəlində isə 245 ibtidai məktəb olub. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən ötən ilin sonu verilən məlumata görə, müəssisələrdəki şagird sayı və kadr təminatı məsələləri nəzərə alınaraq təhlillər aparılır, təhsil müəssisələrinin rasionallaşdırılması prosesi həyata keçirilir.

Rasionallaşdırılmanın həyata keçirilməsində məqsəd mövcud məktəb şəbəkəsinin optimallaşdırılması, mövcud resursların və ayrılan xərclərin səmərəli bölüşdürülməsi, eləcə də daha dayanıqlı təhsil infrastrukturunun və keyfiyyətli təhsil mühitinin formalaşdırılmasıdır.

Rasionallaşdırma prosesi zamanı bəzi məktəblərin fəaliyyəti dayandırılsa da, bəzi məktəblərin tipinin dəyişdirilməsi və ya birləşdirilməsi, eləcə də peşə təmayüllü siniflərin açılması həyata keçirilib.

# Azərbaycanda 14 minə yaxın tələbə təhsilini başa vura bilməyib



**Azərbaycanda ali və orta ixtisas təhsili alan minlərlə tələbə 2024-cü ildə təhsilini başa vura bilməyib.**

Modern.az-ın Dövlət İmtahan Mərkəzinin nəşr etdiyi "Abituriyent 12" jurnalından əldə etdiyi məlumata görə, ötən il 14 minə yaxın tələbə müxtəlif səbəblərlə təhsil aldığı müəssisədə təhsildən kənarlaşdırılıb.

Ən çox tələbə təhsil haqqının ödənilməməsi, dərs buraxmaları və öz xahişi ilə təhsilini tamamlaya bilməyib, bu səbəblərlə 10 min 746 nəfər oxuduğu müəssisədə təhsilini yarımçıq qoyub.

Statistikaya görə, 315 nəfər akademik borc səbəbilə, 1133 nəfər digər təhsil müəssisəsinə köçürülmə ilə, 1346 nəfər isə təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması səbəbindən təhsilini dayandırıb.

Bundan başqa, 53 nəfər təkrar kursda saxlanılıb.

Amma rəqəmlər arasında daha bir ağır statistika var: 2024-cü ildə 76 tələbə vəfat edib. Onların 54-ü bakalavriat, 5-i magistratura pilləsində, 17-si isə orta ixtisas və tam orta ixtisas bazası üzrə təhsil alırdı.

Qeyd edək ki, bu rəqəmlər yalnız ali məktəbləri deyil, həm də orta ixtisas təhsil müəssisələrini əhatə edir.

YENİ MÜSAVAT
N 97 (8707) 5 iyun 2025

# Rusiya miqrantlarla bağlı siyasəti sərtləşdirir - yeni tələb

## Azər Allahverənov: "Bir il ərzində Rusiyadan deportasiya olunanlar üçün dövlət hesabına 10 milyon dollardan çox vəsait xərclənib"

## Natiq Cəfərli: "Hökumət Rusiyadan qayıdacaq azərbaycanlılarla bağlı proqramlar hazırlamalıdır"

**Rusiya Dövlət Dumasının "Yeni adamlar" fraksiyasının deputatları ölkənin Daxili İşlər Nazirliyinin rəhbəri Vladimir Kolokoltsevə məktub göndərərək, əmək miqrantlarını Rusiya Federasiyasına daxil olarkən qanun pozuntusuna yol verdikləri halda deportasiya xərclərini ödəyəcək depozit qoymağa məcbur etmək təklifi ilə çıxış ediblər.**

Yeni tələb Rusiyaya miqrant axınına və soydaşlarımızın durumuna necə təsir edə bilər?

**Milli Məclisin deputatı Azər Allahverənov** mövzunu "Yeni Müsavat"a şərh edərkən qeyd etdi ki, qanunların sərtləşdirilməsi bir qism miqrantın maraqlarına cavab vermir. Deputat əlavə prosedurların, əngəllərin, əlavə xərclərin yarandığına diqqət çəkdi: "Rusiya ilə vizasız gediş-gəlişi olan vətəndaşlar ölkəyə giriş barədə 72 saat qalmış aidiyyəti qurumlara məlumat verməlidirlər, onlara "QR kod" verilir. Bəzi qaydalar var ki, əlavə vəsait, yaxud vaxt itkisi yaradır. Depozit məsrəfləri də bunlardan biridir. Ölkə ərazisinə giriş edən şəxslərin heç də hamısı istirahətə gəlmir. Müəyyən hissə Rusiyada əmək fəaliyyəti ilə məşğul olmaq istəyir. Bu da o deməkdir ki, insanların əlində müəyyən qədər vəsait olmalıdır və bu vəsait depozit hesabına köçürülməlidir. Əgər şəxsin qanunsuz miqrant kimi ölkədən çıxarılması barədə qərar qəbul edilərsə, bu həmin vəsait hesabına həyata keçirilə bilər. Keçən ilin sentyabr ayından etibarən yeni qaydalar tətbiq edilir. Bu ilin yanvar və fevral aylarından etibarən isə intensiv deportasiya prosesi başlayıb. Məlumata əsasən, bir il ərzində Rusiyada deportasiya olunanlar üçün dövlət hesabına 10 milyon ABŞ dollarından çox vəsait xərclənib. Hökumət bu yükü azaltmaq üçün depozit məsələsini gündəmə gətirir. Bu isə miqrantlara narahatlıq yaradan haldır. Onların heç də hamısının depozit qoymağa imkanı olmaya bilər. Sözügedən təklif Rusiyaya səfər etmək istəyən insanların qərarına mənfi təsir edə bilər. Azərbaycanla Rusiya arasında miqrasiya mübadiləsi bir zamanlar intensiv idi. Son illərin statistikasına nəzər saldıqda prosesin nisbətən səngidiyini müşahidə edirik. Bu, Azərbaycandan Rusiyaya səfər etmək istəyən, orada əmək fəaliyyəti ilə məşğul olmaq niyyəti olan və nisbətən aztəminatlı ailədən olan şəxslər üçün problem yarada bilər".

**A.Allahverənov hesab edir ki, depozit vəsaitinin məbləği ilə bağlı dəqiq fikir bildirmək hələ tezdir:** "Depozit məbləği 1000 dollar, yaxud daha az, 500 dollar həcmində müəyyən edilə bilər. Hətta bu məbləğ ölkəyə görə dəyişə bilər. İstənilən halda bu, xüsusilə işsizlikdən əziyyət çəkən aztəminatlı şəxslər üçün böyük vəsait hesab olunur. Rusiya yeni "alətlərin" tətbiqində maraqlıdır. Bu, təklif kimi irəli sürülüb, aidiyyəti qurumlar bunu dəyərləndirəcəklər. Qərar qəbul edilərsə, xüsusilə Mərkəzi Asiyadan olan miqrantlara mənfi təsir edəcək, çünki bu istiqamətdə Rusiyaya miqrant axını çox yüksəkdir".

**Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri Natiq Cəfərli "Yeni Müsavat"a şərhində bildirdi ki, Rusiyada miqrantlara qarşı qanunlar daha da sərtləşəcək. Partiya sədrinin sözlərinə görə, bunun bir neçə səbəbi var:** "Rusiya daxilində iqtisadi, sosial problemlərin olduğu heç kəsə sirr deyil. Hökumət hesab edir ki, daxili problemlərin "günahkarı" miqrantlardır. Rusiya hökuməti bunun anormal idarəetmə sistemi, korrupsiya ilə əlaqəli olduğunu qəbul etmək istəmir. Əksinə, həm deputat fraksiyaları, həm də rəsmi kanallar vasitəsilə əhaliyə mesaj verir ki, günah miqrantlardadır. Buna görə də son iki ildə miqrasiya haqqında qanunlar sərtləşdirilir. Bunu nəzərə almaq lazımdır. Rusiyada yaşayan azərbaycanlıların gələcəyi ilə bağlı müəyyən planların qurulmasına ehtiyac var, çünki azərbaycanlıların əksəriyyəti Rusiya vətəndaşıdır. Onlara qarşı heç bir addım atıla bilməz. Qanuna edilən dəyişikliklər Rusiya pasportu olanlara aid deyil. Qanuni və qeyri-qanuni çalışan, Rusiya vətəndaşı olmayan miqrantlarla bağlı müəyyən addımlar atıla bilər. Onların bəziləri ölkəyə qayıda bilərlər. Biz buna hazır olmalıyıq. Ən önəmlisi bunu təhlükə kimi görmək lazım deyil. Mənə elə gəlir ki, bu, hətta fürsətdir. Azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri aparılır, köç prosesi davam edir, əlavə işçi qüvvəsinə ehtiyac var. Qarabağa köçən insanların sayı artmalıdır. Rusiyadan qayıtmaq ehtimalı olan miqrantların bir qismini Qarabağda və Şərqi Zəngəzurda işlə təmin etmək olar. Rusiyada çalışan azərbaycanlıların bir qismi əslən qarabağlıdır. Bu baxımdan geri dönmə ehtimalı olan azərbaycanlılarla bağlı Azərbaycan hökuməti proqramlar hazırlamalıdır".



❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Büdcəmizdəki yarım milyardlıq kəsir... - iqtisadçının şərhi

## Eldəniz Əmirov: "2025-ci ildə büdcə kəsirinin yenidən proqnozdan 6 dəfə az olacağını gözləmirəm"



**"2024-cü ildə ölkə üzrə ümumilikdə 19 min 602 sayda 9 mlrd. 845,0 mln. manat məbləğində satınalma baş tutub".**

Bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisin plenar iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı bildirib.

"Bu da 2023-cü illə müqayisədə məbləğ baxımından 30,5%, say baxımından 57,0% çoxdur. Dövlət satınalmaları ilə əhatə edilmiş məbləğin artımına yeni qanunda satınalma predmetinin maliyyə vəsaiti hesabına əldə edilməsinin təsbit olunması və ehtimal olunan qiymətin minimum məbləği 5,0 min manatdan aşağı olan - şərti ortalama məbləği 2 min 758,2 manat və sayı 1849 olan "kiçik müqavilələr" də təsir edib.

Təqdim edilmiş məlumatlara əsasən, dövlət sifarişi çərçivəsində publik hüquqi şəxslərə ayrılan vəsaitin məbləği 958,5 mln. manat təşkil edib və bu, əvvəlki ildən 2,2 dəfə çox olub. Məbləğin artımına institusional dəyişikliklər (başqa sözlə, yeni publik hüquqi şəxslərin yaradılması) təsir edib. Dövlət sifarişi ilə yanaşı, dövlət büdcəsinin ayrı-ayrı istiqamətləri üzrə ümumilikdə təxminən 9,0 mlrd. manatdan çox vəsait publik hüquqi şəxslər tərəfindən icra edilib.

Qeyd edək ki, bu məbləğə dövlət əsaslı vəsait qoyuluşunun, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasının, ehtiyat fondlarının, dövlət sifarişi ilə bağlı olmayan digər istiqamətlərin xərcləri də daxil edilib. Publik hüquqi şəxslər üzrə sifariş mexanizmlərinin təkmilləşdirilməsini, o cümlədən vəsaitin icrasının xəzinədarlığın müşayiəti ilə həyata keçirilməsinin zəruriliyini bir daha bildiririk. Bununla bərabər, hesabat ilində təxminən 8,0 mln. manata yaxın büdcə krediti, 500,0 mln. manat dövlət subsidiyası və ssudalar verilib. Hesab edirik ki, büdcə mexanizmlərini təfsilatlı tənzimləməyə imkan verən qaydaların - prosedur və ya meyarları özündə əks etdirən tənzimlənmənin hazırlanması maliyyə nəzarəti baxımından çox əhəmiyyətlidir.

2024-cü ildə büdcə kəsiri 3,4 mlrd. manat məbləğində təsdiq edilmiş yuxarı həddə qarşı 551,8 mln. manat olub, 1776,6 mln. manat artıq cəlb edilmiş vəsait dövlət büdcəsinin sərbəst qalığına yönəldilib. Qalığın artımı vəsaitlərinin idarəedilməsi üzrə yeni yanaşmaları, o cümlədən vəsaitlərin və dövlət borcunun idarəedilməsi üzrə kompleks fəaliyyəti labüd edir", - deyə sədr bildirib.

Beləliklə, ötən il büdcə kəsiri 551,8 mln. manat olub.

Bəs iqtisadçılar səbəbləri nə ilə izah edirlər və bu ilin büdcəsində də kəsir gözlənilirmi?

**Mövzu ilə bağlı iqtisadçı Eldəniz Əmirov "Yeni Müsavat"a danışıb:** "Əgər dövlət büdcəsinin proqnozlaşdırılan kəsiri il sonunda nəzərdə tutulandan daha az göstəricilərlə yekunlaşırsa, bunun sadə şəkildə bir neçə səbəbi ola bilər. Bunlardan birincisi - gəlirlərin daha yüksək səviyyədə icra olunması bu kəsirin həcmini azalda bilər; ikincisi - xərclərin daha az istifadə edilməsi bu kəsiri azalda bilər. Bir də hər iki amilin birlikdə təsiri, yəni həm gəlirin çox olması, həm də xərclərin az olması nəticə etibarilə büdcə kəsirinin proqnozlaşdırılandan daha az formalaşmasına gətirib çıxarır.

Amma konkret olaraq Azərbaycanda 2024-cü ilin büdcə kəsirinin azalması səbəblərinə gəldikdə isə görürük ki, yuxarıda qeyd edilən bütün amillərin müəyyən rolu var. Xərclərin idarə olunmasında müəyyən proseslərin təsiri müşahidə olunur, çünki bəzi xərclər adətən gecikdirilir. Həmçinin müəyyən infrastruktur xərcləri var ki, onlar da müəyyən dərəcədə il ərzində aparılan proseslərin ləngiməsi səbəbilə azalıb.

Eyni zamanda publik hüquqi şəxslərin rolunun getdikcə artması nəticə etibarilə onların əlavə vəsait cəlb etməsinə, bəzi xərclərin büdcədənkənar mənbələr hesabına qarşılanmasına imkan yaradır. Bu isə praktikada belə halların mümkünlüyünü göstərir".

**İqtisadçı qeyd edir ki, bütün hallarda 3,4 milyard manatlıq borcun 6 dəfə azalaraq 551,8 milyon manata düşməsi təbii olaraq təqdirəlayiq haldır:** "Bəs 2025-ci ildə də bu olacaqmı? Bunu birmənalı şəkildə demək çətindir. Amma nəzərə alsaq ki, Maliyyə Nazirliyinin yeni komandası dövlət büdcəsinin idarəçiliyində daha şəffaf və daha yenilikçi mövqe ortaya qoyacaq, hesab edirəm ki, 2025-ci ilin dövlət büdcəsinin icrası əvvəlki illərlə müqayisədə daha peşəkar şəkildə həyata keçiriləcək. Ən azından 2025-ci ilin geridə qalmış dörd ayı ərzində mövcud dinamikanı izlədikdə bu qənaətə gəlmək mümkündür.

Çünki həm şəffaflığın təmin olunması, həm qalıq vəsaitlərin düzgün idarə edilməsi üçün depozit siyasətinin genişləndirilməsi, həm də xərclərin mərhələli icrası və digər bu kimi məsələlər 2025-ci ildə nəzərdə tutulan təxminən 3 milyard manatdan bir qədər artıq büdcə kəsirinin müəyyən qədər daha aşağı göstəricilərlə qapadılmasına imkan verə bilər.

Yəni 2025-ci ildə büdcə kəsirinin yenidən proqnozdan 6 dəfə az olacağını gözləmirəm. O baxımdan ki, əgər sülh müqaviləsi bağlanarsa, işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri daha böyük sürətlə aparılacaq və bu zaman artıq daha böyük xərclərə ehtiyac yaranacaq.

Bütün hallarda 2025-ci ildə büdcə kəsirinin yekun etibarilə nə qədər az olacağını indidən proqnozlaşdırmaq düzgün və peşəkar yanaşma olmazdı, çünki bu, bir çox faktordan asılıdır. Amma bütün hallarda hesab edirəm ki, 2025-ci ildə dövlət büdcəsi uğurla icra olunacaq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# "Dişi ağrıyanda da həkimə aparmayıblar"- özünü öldürən Ülviyyənin dəhşətli həyat hekayəsi



**Ağcabədi rayonunda 1998-ci il təvəllüdlü Ülviyyə Zakir qızı Baxşəlizadənin intiharına görə qayınatası Bəhlul Baxşəlizadə cəzalandırılıb. İstintaq zamanı Ülviyyənin özünə qəsd etməsinin təfərrüatı bilinib, yeni iddialar ortaya çıxıb. Mərhumun ailəsi qızlarının intihar etmədiyini, öldürüldüyünü deyib.**

Musavat.com xəbər verir ki, hadisə Ağcabədi rayonu Taxtakörpü qəsəbəsində baş verib. Ülviyyə yaşadıqları evdə ov tüfəngindən atəş açaraq özünü öldürüb. Hadisə ailə münaqişəsi zəminində yaranmış söz-söhbət nəticəsində baş verib. Ülviyyənin özünü vurduğu silah qayınatasına məxsus olub.

Hadisəyə görə Bəhlul Baxçəlizadə odlu silahı diqqətsiz saxlama maddəsi ilə təqsirli bilinib. Məhkəmənin hökmü ilə onun barəsində 2 il azadlığın məhdudlaşdırılması cəzası təyin edlib.

**Ülviyyə niyə intiharı seçdi?**

İstintaq zamanı Ülviyyənin qayınatası Bəhlul Baxşəlizadə dindiriləndə bunları deyib:

"Ülviyyə ilə ailə üzvlərimizin münasibətləri daim yaxşı olub. Lakin Ülviyyə xasiyyətcə əsəbi olduğuna görə ara-sıra ailədə söz-söhbətlər olurdu. Belə söz-söhbətlər yarananda bir ailə başçısı kimi Ülviyyə ilə təmkinli rəftar edirdim. Heç vaxt ona qarşı fiziki zor tətbiq etməmişəm. Ülviyyə bir neçə dəfə küsüb atası evinə də getmişdi. Atasının yanına barışığa gedib gəlinimi geri qaytarmışam. Sonuncu dəfə Ülviyyə boşanmaq qərarına da gəlmişdi. Yenə gedib Ülviyyəni geri qaytardım. Ülviyyə son aylar böyrək və sidik kanalı iltihabı xəstəliyindən əziyyət çəkirdi. Ülviyyə xəstəliyi barədə məlumat aldıqdan sonra əsəbləri daha da gərginləşdi. Rövşənlə daha tez-tez mübahisə etməyə başladı. Son günlərdə bir-iki dəfə Ülviyyə yaşamaq istəməməsi barədə sözlər də danışırdı. Sanki yaşamaqdan bezmiş kimi davranırdı".

Bəhlul Baxşəlizadə intihar baş verən gün yaşananları danışarkən deyib ki, oğlu ilə Ülviyyənin mübahisə etdiyini görüb. Səbəb isə Ülviyyənin tapşırdığı şirniyyatı Rövşənin yadından çıxdığı üçün marketdən almaması olub.

"Uca səslə qışqırıb mübahisə edirdilər. Ülviyyə qəfildən "siz indi gözləyin, görün nə olur" deyib evə keçdi. Onun arxasınca evə qaçdım. Ülviyyə sandığın arxasında divara söykədilmiş ov tüfəngini götürdü. Silahın lüləsini qarınına sıxıb saxladı. Ülviyə bizi görən kimi "yaxın durmayın, yoxsa özümü öldürəcəm" dedi. Ona yalvardım, balalarının canına and verdim, amma heç bir sözə məhəl qoymadı. Tətiyi basıb özünə atəş açdı. Sonra özümüzü itirdik. Çölə qaçıb qışqırdıq, qonşuları köməyə çağırdıq. Ülviyyəni xəstəxanaya apardıq", - deyə təqsirləndirilən şəxs ifadəsində bildirib.

**Bəhlul Baxşəlizadə silaha mərminin kim tərəfindən yerləşdirilməsi barədə sualı belə cavablandırıb:** "Silahı həmişə evdə təmizləyəndə Ülviyyə görürdü. Oradan bilirdi ki, silah necə istifadə edilir. Gülləni necə yerləşdirməyi də bilirdi".

Mərhumun anası hüquqi varis kimi dindirilən zaman Bəhlul Baxşəlizadəyə ağır cəza verilməsini istəyib.

**Onun sözlərinə görə, qızı Ülviyyə qayınanası və qayınatasının onun hər xırda işinə müdaxilə etdiyini deyirmiş:** "Əvvəl problemlərinin olmadığını bilirdim. Nəsə olanda da mənə demirdi. Sonradan öyrəndim ki, söz-söhbətləri var imiş. Vaxt keçdikcə Ülviyyəni yola vermədilər. Tez-tez maddi məsələlərlə bağlı da qızımı sıxışdırırdılar. Ülviyyə gəlin getdiyi ikinci ayda qayınanası Tərgül ona demişdi ki, evin bir qızısan, atan niyə sənə qızıl almayıb. Ülviyyə maddi imkanı olmadığına görə qızıl ala bilmədiyini deyib pərt olmuşdu. Qayınatası Bəhlul da Ülviyyəyə demişdi ki, atan niyə nəvələrinə beşik almır. Qızımın əsəblərini pozmuşdurlar. Ülviyyə evdə yemək bişirərkən qayınatası Bəhlul buna da müdaxilə edib yeməyi necə bişirməsi, israfçılığa yol verməməsi kimi göstərişlər verirmiş.

Qızım mərd, kişi xasiyyətli olduğuna görə söz götürən deyildi. Ülviyyənin saçı açıq çölə çıxmasına da problem yaradırdılar. Ülviyyənin qayınatası çox xəsis idi. İkinci uşaq olandan sonra xərclərin artmasına görə deyinirdi. Ülviyyəninn dişi ağrıyanda xərc olmasın deyə həkimə aparmamışdılar".

Mərhumun anası qızının Bəhlul Baxşəlizadə tərəfindən qəsdən öldürüldüyünü bildirib və ona ağır cəza verilməsini tələb edib.

Qeyd edək ki, mərhumdan sonra iki övladı anasız qalıb.

❑ İlkin MURADOV,
"Yeni Musavat"

# "Amin Mərdəkanski"nin qardaşı uşaqları hakim qarşısında - qanlı davanın təfərrüatları



**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə ötən il öldürülən Amil Xudaverdiyevin yaxın qohumlarının cinayət işi üzrə proses davam edir. Müttəhimlər kürsüsünə Amil Xudaverdiyevin qardaşlarının övladları Pərviz və Seymur Xudaverdiyevlər çıxarılıblar.**

Musavat.com xəbər verir ki, o, 2023-cü ilin noyabrın 1-də Xəzər rayonu, Şağan qəsəbəsi ərazisində 53 yaşlı Cavanşir Ruhulla oğlu Abdullayevi "Revolver" markalı tapança ilə qətlə yetirib. Bundan sonra 38 yaşlı Pərviz Cabir oğlu Xudaverdiyev polisə təslim olub. İstintaq araşdırması zamanı hadisənin törədilməsində iştirak edən daha bir nəfər - Seymur Adil oğlu Xudaverdiyev də müəyyən olunaraq saxlanılıb.

İstintaqla müəyyən edilib ki, 2023-cü il noyabrın 1-də saat 17 radələrində Xəzər rayonu, Şağan qəsəbəsi ərazisində 1970-ci il təvəllüdlü Cavanşir Abdullayevin qətlinə dair rayon prokurorluğuna məlumat daxil olub.

Araşdırmalarla Pərviz Xudaverdiyevin aralarında yaranmış mübahisə zamanı "Revolver" tipli silahdan atəş açmaqla Cavanşir Abdullayevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Cinayət əməlini törətməkdə şübhəli bilinən Pərviz polis bölməsinə gələrək təslim olub. O, ölən şəxsin qohumudur.

Qətlə yetirilən Cavanşir Abdullayev Pərvizin əmisi Amin Xudaverdiyevin ("Mərdəkanski") qudası olub. Cavanşir Abdullayevin oğlu Ruhulla Abdullazadə Pərvizin bacısını qaçırıb. Münaqişə Ruhulla Pərvizin bacısını boşadıqdan sonra yaranıb. Mərhum Cavanşir Abdullayev quyu qazan texnikanın sürücüsü, Pərviz Xudaverdiyev isə qəssab kimi fəaliyyət göstəriblər.

Ötən prosesdə dindirilən Şahin Xudaverdiyev bildirib ki, onun eşitmə, görmə və yaddaşla bağlı problemi olduğu üçün hadisəni dəqiq xatırlamır: "Mən heç nə bilmirəm. Onu eşitmişəm ki, qardaşım qudam Cavanşiri öldürüb. Kim demişdi, xatırlamıram. Məsələ isə qızımla əlaqədar olmayıb. Sosial şəbəkədə paylaşılanlardan da xəbərim yoxdur. Mən köhnə model telefon istifadəçisiyəm".

Bu zaman hakim Novruz Kərimov ona qardaşının bunu niyə etməsinin səbəbini soruşub. Şahid cavab verib ki, qardaşı da daxil olmaqla ailəsinin bir neçə üzvü ruhi xəstəlikdən əziyyət çəkib: "Bizim ailədə ikinci qardaşımdan başqa hamı ruhi dispanserdə müalicə alıb. Pərvizin də belə problemi olub. Ümumiyyətlə, hadisəni niyə törətdiyini bilmirəm. Silah-sursat da görməmişəm".

Faktla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) və 228.1-ci (qanunsuz olaraq odlu silah əldə etmə və gəzdirmə) maddələri ilə cinayət işi başlanıb.

❑ E.MƏMMƏDƏLİYEV,
Musavat.com

# Qüsurlu mal satdılar, məhkəməyə verib pulunu aldılar - "Kontakt Home" absurdu




**Müştəri "Kontakt Home" mağazasından qulaqcıq alıb, məhsul istifadə olunmuş və texniki cəhətdən nasaz olub. Bu səbəblə məhsulu geri qaytaran müştəri problemlərlə üzləşib, üstəlik, onu məhkəməyə verib nasaz məhslun pulunu alıblar!**

Musavat.com xəbər verir ki, mağazanın müştərisi Gülnar Ədalət qızı Hüseynova "Azad İstehlakçılar" İctimai Birliyinə müraciət edərək istehlakçı hüquqlarının kobud şəkildə pozulması ilə bağlı ciddi narahatlıqlarını bildirib.

Gülnar Hüseynova müraciətində yazır ki, 30.07.2022-ci il tarixində "Kontakt Home" mağazasının Azadlıq filialından 650 manata "Apple" markalı qulaqcığı kreditlə və müqavilə əsasında alıb. Məhsula 1 il zəmanət verilib.

"Bu məhsulu hədiyyə etmək məqsədilə almışdım. Satıcılar tərəfindən məhsulun tamamilə yeni və qüsursuz olduğu bildirildi. Mən də bu məlumata əsaslanaraq məhsulu alıb, istifadə etmədən bir müddət evdə saxladım və sonra hədiyyə etdim. Lakin məlum oldu ki, məhsul istifadə olunub və texniki cəhətdən nasazdır. Bacım da həmin gün eyni məhsulu almış və qüsurlu olduğunu görüb qaytara bilmişdi. Bu barədə dərhal mağazaya müraciət etdim və məhsulun dəyişdirilməsini və ya geri qaytarılmasını tələb etdim. Tələbim rədd olundu və məhsul "Servis Link" texniki xidmət mərkəzinə yönləndirildi. Orada bildirildi ki, məhsul həqiqətən qüsurludur, lakin yalnız təmir edilə bilər. Mən təmirə razı olmadım və yenisi ilə əvəzlənməsini tələb etdim. Məhsul servis mərkəzində saxlanıldı, mənə bu barədə qüsur aktı təqdim olundu. Məhsulun qutusunu, sənədləri və aksesuarları mağazaya təhvil verdim. Əgər yeni məhsul verilməyəcəksə, ödəniş etməyəcəyimi bildirərək müqaviləyə xitam verilməsini istədim. Mağaza əməkdaşları bu istəyə müsbət cavab verdilər. Bu zaman mən artıq 50 manat ödəmişdim", - deyə şikayətçi AİB-ə təqdim etdiyi şikayətində qeyd edir.

**Şikayətçi bildirir ki, növbəti 2 il ərzində ona mağazadan zəng edən, bildiriş göndərən olmayıb:** "Lakin 2024-cü ildə Füzuli Rayon Məhkəməsindən zəng gəldi və bildirildi ki, "Kontakt Home" məni məhkəməyə verib, mənim iştirakım olmadan qərar çıxarılıb və borclu kimi tanınmışam. Şirkət iddia edir ki, mənə zəng və mesaj göndərilib, lakin bu, həqiqətə uyğun deyil. Məhkəmə sənədindən ehtiyat edərək qulaqcığı geri götürmək qərarına gəldim. "Servis Link" mərkəzinə getdim və öyrəndim ki, qulaqcığın hissələri dəyişdirilib. Məhsulu götürüb mağazaya yaxınlaşdım və qutu, adapter, sənədləri tələb etdim. Bildirildi ki, vaxt keçdiyindən heç nə saxlanılmayıb. Qulaqcığın yenidən nasaz olduğu üzə çıxdı, lakin zəmanətin bitdiyi deyildi. Təkidimlə ödənişsiz baxılmasına qərar verildi və mən bu müddətdə 30 manat da aylıq ödəniş etdim. 10 gün sonra servis mərkəzi zəng edərək bildirdi ki, təmir üçün 249 manat ödəniş tələb olunur. Mən bu ödənişi etmədim və məhsulu təmirsiz geri götürdüm. Nəticədə, iş yerimə məhkəmə qərarı göndərildi və maaşımdan 109 manat tutuldu".

**Gülnar Hüseynova qeyd edir ki, aylıq 500 manat maaş alır, kirayədə yaşayır:** "Məbləğin bu şəkildə tutulması mənə ağır sosial və maliyyə zərbəsidir. Ən əsası odur ki, məhkəmə prosesi mənim xəbərim olmadan keçirilib. Bu, konstitusiya ilə təmin olunmuş müdafiə hüququmun pozulmasıdır. Tələb edirəm ki, mənə qarşı çıxarılan məhkəmə qərarının ləğvi üçün prokurorluq hərəkətə keçsin. Ödədiyim bütün məbləğlərin ilkin ödəniş, aylıq ödənişlər və əməkhaqqımdan tutulan vəsait tam şəkildə geri qaytarılması təmin olunsun. Qüsurlu məhsulun geri götürülməsi və məsuliyyətin "Kontakt Home" tərəfindən üzərinə götürülsün".

**P.S.** *Məsələ ilə bağlı "Kontakt Home" rəsmilərini dinləməyə hazırıq.*

❑ E.MƏMMƏDƏLİYEV,
Musavat.com

**Elan:**

**2009-cu ildə Sumqayıt şəhəri 16 nömrəli tam orta məktəbi bitirmiş Əliyeva Natəvan Rövşən qızına verilmiş BN609964 nömrəli attestat itdiyi üçün etibarsızdır.**

# Tarixi gerçəkliyi dilə gətirən azərbaycanlı deputatın nəsibi: isterik tənqid, total təqib...

## Xalid Tağızadə deputat statusundan məhrum edildi

**Rusiyanın Xantı-Mansı Muxtar Dairəsi Dumasının sosial inkişaf komitəsi sədrinin müavini Xalid Tağızadə bölgənin "özbəklərin tarixi vətəni" olduğunu bildirdikdən sonra vəzifəsindən azad edilib.**

İyunun 3-də Dairə Dumasının keçirilən növbədənkənar sessiyasında Tağızadə deputat statusundan məhrum olunub. Sessiya zamanı ona ictimaiyyət qarşısında üzr istəməsi tövsiyə olunub. Bununla yanaşı, etika komissiyası prokurorluğa müraciət edərək onun səsləndirdiyi fikirlərin Rusiya qanunvericiliyinə zidd olub-olmadığının araşdırılmasını istəyib.

Yerli KİV-in məlumatına görə, yaranmış narazılıq fonunda Tağızadənin Azərbaycana qayıtmaq ehtimalı müzakirə olunur.

Xalid Tağızadə isə səsləndirdiyi fikrə görə artıq üzr istəyib. O, "Yuqra özbəklərin vətənidir" ifadəsinin şəxsi fərziyyəsi olduğunu və bu bəyanatı vitse-qubernatorla müavinlər arasında yaranmış gərginliyi yumşaltmaq məqsədilə dediyini bildirib.

Sözügedən bəyanatın yayılması sosial şəbəkələrdə, xüsusilə Telegram platformasında geniş rezonans doğurub və mübahisələrə səbəb olub (Milli.Az).




## Müsəlmanları təhqir edən Areq Şepixinin saxlanılması ajiotaj doğurub

**Moskvada erməni əsilli Areq Şepixinin "Kadırovçular" tərəfindən saxlanılması ilə bağlı yayılan xəbərlərə və videogörüntülərə Çeçenistan hakimiyyəti rəsmi reaksiya verib.**

Musavat.com xəbər verir ki, Çeçenistan rəsmiləri bu şəxsin oğurlanmadığını, əksinə, hüquq-mühafizə orqanları tərəfindən saxlanıldığını açıqlayıb. Onların bildirdiyinə görə, saxlanma əməliyyatı Moskvanın aidiyyəti qurumları ilə birgə həyata keçirilib.

Rəsmi bəyanatda Şepixinin "etnik təmizləməyə çağırış etdiyi, dini və Allahı təhqir etdiyi, açıq-aşkar ekstremist fikirlər səsləndirdiyi və azyaşlı uşaqlara qarşı cinsi zorakılıq niyyəti bəyan etdiyi" vurğulanıb.

"Bu şəxs oğurlanmayıb. O, cinayətkar kimi saxlanılıb", - deyə açıqlamada qeyd olunub.

Hadisə sosial şəbəkələrdə və ictimaiyyətdə geniş rezonans doğurub. Məsələ ilə bağlı araşdırmalar davam etdirilir.

Qeyd edək ki, yayılmış videoda 4 mülki geyimli şəxsin bir nəfəri ictimai məkanda ayaqlarından və qollarından tutaraq xərəkdəymiş kimi apardıqları görünür. Bəzi istifadəçilər isə bunu "adam oğurlamaq" kimi qələmə verirlər.

❑ Musavat.com



**Rusiyanın Xantı-Mansı Muxtar Dairəsi (XMAO) Dumasının deputatı, azərbaycanlı diaspor nümayəndəsi Xalid Tağızadə öz çıxışına görə rəsmi şəkildə üzr istəməyə məcbur qalıb.**

Ötən ayın 30-da Xanti-Mansi Muxtar Dairəsi Dumasında keçirilən müzakirələr zamanı bir sıra deputatlar dairənin yerli əhalisi arasında doğum səviyyəsinin azalmasından və əvəzində miqrant ailələrində, o cümlədən özbək və tacik mənşəli ailələrdə doğulan uşaqların sayının artmasından narahatlıq ifadə ediblər. Bununla yanaşı, regiona miqrant axınının artması ilə bağlı da ciddi narahatlıqlar səsləndirilib.

Cavab olaraq deputat Tağızadə bildirib ki, "gəlmələr müxtəlif olur". O xatırladıb ki, vaxtilə Yuqra və Tümen vilayətinin bir hissəsi Sibir xanlığının tərkibində olub və bu xanlığın sonuncu hökmdarı Buxara xanlığından çıxmış, özbək mənşəli Şeybanilər sülaləsinə mənsub Küçüm xan olub. Tağızadə ehtimal edib ki, miqrantlar Xantı-Mansı Muxtar Dairəsinə öz tarixi vətənlərinə gəlirmiş kimi üz tuturlar.

Xantı-Mansı parlamentinin sədri Boris Xoxryakov deputatın sözünü kəsərək onu qaydalara əməl etməyə çağırıb. Buna baxmayaraq, Tağızadənin çıxışı internetə sızıb və geniş ictimai rezonansa səbəb olub. İclasın ertəsi günü Xoxryakov Dumanın etika komissiyasının məsələyə baxacağını və Tağızadənin açıqlamalarına qiymət verəcəyini bildirib.

X.Tağızadənin orta əsrlərdə Sibirdə mövcud olmuş türk xanlığı barədə söylədiyi sözlər o qədər güclü qəzəb və etiraz doğurub ki, artıq ertəsi gün o, "VKontakte" sosial şəbəkəsindəki səhifəsində üzr istəməyə məcbur qalıb. Parlament üzvünün sözlərinə görə, o, sadəcə, belə bir təfsiri ehtimal kimi irəli sürüb və bunu fakt kimi təqdim etməyib. Tağızadə etiraf edib ki, onun sözləri birmənalı qarşılanmaya bilərdi və buna görə təəssüfünü ifadə edərək bildirib ki, heç kimi təhqir etmək niyyəti olmayıb: "Yuqranın miqrantlar üçün cəlbedici olmasının mümkün səbəbləri barədə fərziyyə irəli sürdüm. Qəti hökm deyil, sadəcə, fərziyyə idi. Təəssüf ki, sözlərim birmənalı qarşılanmadı. Bunun üçün dərin təəssüf hissi keçirir və üzr istəyirəm," - deyə Tağızadə qeyd edib. O bəyan edib ki, səsləndirdiyi "özbəklər Yuqraya tarixi vətənlərinə qayıdırlar" ehtimalında "mövcud vəziyyəti obyektiv şəkildə təhlil etmək və regionun çoxmillətli əhalisi arasında birliyi möhkəmləndirməyin yollarını axtarmaq istəyi istisna olmaqla, heç bir başqa məna və ya alt-məna olmayıb". Tağızadə əlavə edib ki, bu bəyanatı deputat Mixail Selyukovla qubernator müavini Vsevolod Koltsov arasında miqrantlar arasında doğum hallarının sayına dair qızğın mübahisəni yumşaltmaq məqsədilə səsləndirib.

Lakin Azərbaycan əsilli deputatın üzr istəməsi qalmaqalın aradan qaldırılmasına kömək etməyib. Rusiya Dövlət Dumasının Sverdlovsk vilayətindən olan deputatı Maksim İvanov Yuqra parlamentinin üzvü Xalid Tağızadənin qalmaqallı çıxışını "saxta-tarixi mühazirə" adlandırıb. Onun fikrincə, bu cür bəyanatlar "nümunəvi və sərt şəkildə cəzalandırılmalıdır". İvanov baş prokuror İqor Krasnova müraciət ünvanlayaraq Xalid Tağızadənin "Yuqra - özbəklərin vətənidir" fikirlərindən sonra onun çıxışlarının yoxlanmasını tələb edib. İvanov vurğulayıb ki, "keçmiş kimya müəlliminin açıq şəkildə saxta tarixə əsaslanan bir mühazirə oxuması" onda ciddi narahatlıq doğurub. O hesab edir ki, bu çıxışda Rusiya Federasiyasının ərazi bütövlüyünün və suverenliyinin pozulması əlamətləri görünə bilər.

**Deputat bildirib:** "Mən Baş Prokurorluğa sorğu göndərmişəm və xahiş etmişəm ki, Xantı-Mansı Muxtar Dairəsinin deputatının çıxışına hüquqi qiymət verilsin".

Rusiya Liberal Demokrat Partiyasından olan Dövlət Dumasının deputatı Vladimir Sısoyev də "daha sərt addımlar atmağa" çağırıb və baş prokuror İqor Krasnovdan deputat Tağızadənin "etnik ədavətin qızışdırılması və Rusiyanın ərazi bütövlüyünə təhdid" ifadələrinin yoxlanılmasını istəyib. Rusiya Daxili İşlər Nazirliyi də qalmaqala cavab verib və insanlara bu cür bəyanatlara görə hüquqi məsuliyyət daşıdığını xatırladıb.

Xantı-Mansı Muxtar Dairəsinin Duması Rusiya Federasiyası Kommunist Gənclər İttifaqının təsisçilərindən biri X.Tağızadəni regional parlamentin sosial inkişaf komitəsi sədrinin müavini vəzifəsindən azad edib. Bu barədə məlumat regional parlamentin saytında dərc olunub.

Qalmaqaldan sonra deputat jurnalistlərin zənglərinə cavab verməyib və Dumanın iclaslarına qatılmayıb. Siyasi dairələrdə onun ölkəni tərk etdiyi və Azərbaycana gəldiyi barədə məlumatlar yayılıb.

"Yeni Müsavat" xəbər verir ki, Xalid Böyükağa oğlu Tağıyev 1978-ci il noyabrın 15-də Sumqayıt şəhərində anadan olub. O, Krasnoyarsk Dövlət Universitetinin məzunudur. "Kriminalistika kimyası" üzrə ixtisaslaşıb. Eyni zamanda M.F.Reşetnev adına Sibir Aerokosmik Akademiyasının hərbi fakültəsində təhsil alıb. 2015-ci ildə Yuqra Dövlət Universitetində "fiziki kimya" ixtisası üzrə aspirantura təhsilini başa vurub. 2018-ci ilin iyun ayında Yuqra Dövlət Universitetinin magistraturasını "Hüquqşünaslıq" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. İxtisaslaşma sahələri - "Cinayət hüququ və kriminologiya; cəza icra hüququ". 30-dan çox elmi işi və nəşri mövcuddur. Bir müddət Yuqra şəhərinin Daxili İşlər İdarəsində məhkəmə-tibb eksperti işləyib. 2019-2021-ci illərdə Megion Şəhər Dumasının altıncı və yeddinci çağırışlarının deputatı olub. 2021-ci ildən Xantı-Mansı Muxtar Dairəsi Dumasının deputatıdır. Evlidir, iki övladı var.

Bəs deputatın fikirləri nə dərəcədə əsaslıdır? Xantı-Mansı vilayəti, eləcə də Altay diyarına bitişik rayonlar doğrudan da türk xalqlarının məskəni sayılırmı?

Tarixi məxəzlərdən məlum olduğu kimi, Sibir xanlığı Qərbi Sibirdə feodal türk dövləti olub və paytaxtı Qaşlıq şəhəri idi. "Sibir" sözü "Sabir" adlı türk tayfasının adı ilə bağlıdır. Qızıl Orda imperiyasının parçalanmasından əvvəl Sibir xanlığının ilk hökmdarı Mamiq oğlu Taybuğa olub.

Sibir xanlığının Rus dövlətinə birləşdirilməsinin başlanğıcı 1582-1585-ci illərdə Yermak Timofeyeviçin yürüşü ilə qoyulub. Bu yürüş zamanı kazaklar 1582-ci ilin oktyabrında xanlığın paytaxtını ələ keçiriblər. 1587-1588-ci illərdə isə Sibir şəhəri D.G.Çulkovun rəhbərlik etdiyi oxçular tərəfindən yandırılıb. Bundan sonra Sibir xanlığı faktiki olaraq mövcudluğunu dayandırıb və onun ərazisi Rusiya dövlətinin tərkibinə qatılıb.

❑ Şahanə RƏHİMLİ, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 97 (8707) 5 iyun 2025

# SOS! Çimərliklər açılmayıb, Xəzər artıq can alır

## Su hövzələri çəpərlənməli, təhlükəli ərazilərdə kamera və nəzarət sistemləri quraşdırılmalıdır; **FHN rəsmisi:** “Təhlükəsizlik qaydalarını bildiriş formasında bütün çimərlik operatorlarına təqdim etmişik”

**Astarada tələbə nəzarətsiz ərazidə çimərkən boğulub. Boğulan şəxs Lerik rayon sakinidir. Astara Humanitar Kollecinin tələbəsi “Azriba” deyilən çimərlikdə boğularaq ölüb. Boğulan şəxsin kimliyi dəqiqləşdirilir. Meyit Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomoya Birliyinin Lənkəran Şöbəsinə təhvil verilib.**

Sabirabadda isə 16 yaşlı oğlan kanalda boğulub. Rayonun Əhmədabad kənd sakini, 2009-cu il təvəllüdlü Bilalov Bayram Şahin oğlu su kanalında çimərkən batıb. Faktla bağlı Sabirabad Rayon Prokurorluğunda araşdırma aparılır.

Göründüyü kimi, çimərlik mövsümü hələ açıq elan edilməmiş dənizdə, çayda, kanalda boğulma halları baş verir.

Əslində hər il bu vaxtlar bu cür faciələr yaşanır. Bu, daha çox diqqətsizlikdən, çimmək üçün nəzərdə tutulmayan yerlərə girməkdən və üzməyi bacarmamaqdan irəli gəlir. Rəsmi qurumların yaydığı məlumatda da bildirilir ki, boğulanlar bir sıra hallarda nəzarətsiz ərazilərdə suya girir.

Bəs Xəzərdə boğulmamaq üçün nələrə diqqət etmək lazımdır?

Azərbaycan qanunvericiliyinin tələbinə görə, küləyin sürəti saniyədə 10 metri keçirsə, yəni təxminən 6-7 bal gücündə olarsa, o zaman dənizə girmək təhlükəlidir və məsləhət görülmür. Rəsmi məlumatlara görə, Azərbaycanda Xəzərin şimalından cənubuna doğru 950-dən artıq çimərlik tipli məntəqə var. Üstəlik, ölkədə çaylar, göllər, kanallar, su anbarları və digər sututarlar da mövcuddur.

Digər tərəfdən, ölkədə bu sahədə maarifləndirmə işlərinin zəif olması da problemlərdən biridir. Xüsusilə məktəblərdə və gənclər arasında üzgüçülüklə bağlı praktiki biliklərin verilməməsi, yay mövsümündə profilaktik tədbirlərin görülməməsi faciələrin təkrarlanmasına səbəb olur. Həmçinin su hövzələrinin çəpərlənməməsi, təhlükəli ərazilərdə kamera və nəzarət sistemlərinin quraşdırılmaması da riskləri artırır.

Ekspertlərə görə, problemin kökündə qanunvericilik və struktur çatışmazlıqları dayanır. “Çimərliklərin lisenziyalaşdırılması sistemində boşluqlar var. Hər il rəsmi olaraq açıq elan edilən çimərliklərin sayı məhduddur. İnsanlar bu ərazilərdən kənarda çimirlər. Xüsusi nəzarət qurumlarının koordinasiya zəifliyi də qeyd edilir. Bildirilir ki, FHN, bələdiyyə və digər qurumlar arasında bölgü və əməkdaşlıq yetərsizliyi hökm sürür. Eyni zamanda maarifləndirmə kampaniyaları da çox zəifdir, məktəblərdə, televiziya və sosial şəbəkələrdə mövsümqabağı geniş kampaniyalar aparılmır.




Bu kimi faciələrin qarşısını almaq üçün daha ciddi və sistemli tədbirlərə ehtiyac var. Su təhlükəsizliyi yalnız fərdi məsuliyyətlə deyil, eyni zamanda dövlət və cəmiyyət səviyyəsində yanaşma tələb edən sahədir. Maarifləndirici kampaniyalar, xəbərdarlıq nişanlarının artırılması, çimərlik infrastrukturlarının genişləndirilməsi və yerli səviyyədə xilasedici qrupların yaradılması insanların həyatını xilas edə bilər. Ən əsası isə vətəndaşların, xüsusilə də gənclərin bu mövzuda biliklərinin artırılması və suya məsuliyyətli yanaşmasının formalaşdırılması olduqca vacibdir.

**FHN Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Akşin Əlili mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bölüşüb. O deyib ki, hər il çimərlik mövsümünə hazırlıqla əlaqədar olaraq Fövqəladə Hallar Nazirliyi tərəfindən zəruri təhlükəsizlik tədbirləri görülür:** "Ötən illərdə olduğu kimi, bu il də FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti əməkdaşları yerli icra nümayəndələrinin iştirakı ilə may ayından etibarən sahilboyu ərazilərdə monitorinqlər keçiriblər. Monitorinqlərin keçirilməsində əsas məqsəd istifadəyə yararsız və təhlükəli ərazilərin, təhlükəli çimərliklərin müəyyən edilməsi, həmçinin çimərlik sahibkarlarına ( termin olaraq “çimərlik operatorları” deyilir) təhlükəsizlik qaydaları barədə bildirişlərin təqdim edilməsi olub.

Özəl çimərliklərdə insanların sularda təhlükəsizliyi bilavasitə çimərlik operatorları tərəfindən təmin olunmalıdır.

Bu təhlükəsizlik qaydaları hansılardır? Biz bildiriş formasında bütün çimərlik operatorlarına bunu təqdim etmişik. Daha sonra bu monitorinqin nəticəsi olaraq aidiyyəti icra hakimiyyətləri rəhbərlərinin və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə geniş tərkibdə müşavirələrdə monitorinq zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların həlli istiqamətində hər quruma aidiyyəti üzrə icra rəhbərliyi tərəfindən müvafiq tapşırıqlar verilib.

Hazırda xidmətin nəzarət etdiyi çimərliklərdə və “İDEA” İctimai Birliyinin təşəbbüsü ilə yaradılmış ictimai çimərliklərdə dalğıclar vasitəsilə sualtı müayinələr, sualtı təmizləmə işləri aparılır. Mən deyərdim ki, təhlükəsizlik tədbirləri içərisində ən vacib tədbirlərdən biri məhz sualtı müayinələrin aparılmasıdır. Çünki son dövrlərdə Xəzər dənizində suyun çəkilməsi, suyun səviyyəsinin enməsi nəticəsində müxtəlif proseslər baş verib, bəzi yeni təhlükələr yaranıb.

Xəzər dənizi elə bir coğrafi relyefdə yerləşir ki, ilin təxminən 250 gündən çox hissəsində Xəzərdə güclü külək müşahidə olunur və bu külək nəticəsində yaranan dalğalanma sahil zolağına yad cisimlər, daş-qaya parçaları, digər təhlükəli strukturlar gətirə bilir.

Məhz bütün bu faktorlar insan həyatı üçün təhlükə yaradır. Bu təhlükəni qabaqcadan müəyyən etmək üçün - bir daha qeyd edirəm - xidmətin nəzarət etdiyi çimərliklərdə və “İDEA” İctimai Birliyinin təşəbbüsü ilə yaradılmış çimərliklərdə dalğıclar vasitəsilə müayinələr aparılır, təmizləmə işləri həyata keçirilir və hər hansı bir hissədə qəfil dərinlik, çuxur varsa, həmin hissədə xüsusi nişanlar yerləşdirilir.

Bundan başqa, xidmətin nəzarət etdiyi çimərliklərdə və “İDEA”nın təşəbbüsü ilə yaradılmış çimərliklərdə istirahət edən vətəndaşların təhlükəsizlik qaydaları ilə məlumatlandırılması üçün maarifləndirici lövhələr yerləşdiriləcək. Bu işlərə də artıq başlanılır. Növbəti proseslər isə xidmətin balansında olan xilasetmə texnika vasitələrin işlək vəziyyətə gətirilməsi, həmçinin dənizdə üzmə sərhədlərini müəyyən edən nişanların qoyulması işləri davam etdiriləcək. Bütün bu təhlükəsizlik tədbirləri iyunun 15-dək artıq yekunlaşacaq və Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Xidməti iyunun 15-dən gücləndirilmiş rejimdə bütün təhlükəsizlik tədbirlərini görməklə fəaliyyətə başlayacaq".

**Vətəndaşların bəzi su hövzələrində boğulması hallarına gəlincə, qurum rəsmisi deyib ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən aparılmış kütləvi maarifləndirmə işlərinə baxmayaraq, hələ də bəzi vətəndaşlar nəzarət olunmayan çimərliklərdən istifadə edir:** “Eləcə də, təhlükəli ərazilərdən, o cümlədən xüsusən bölgələrdə məqsədi çimərlik kimi nəzərdə tutulmamış suvarma kanallarından, süni göllərdən, su anbarlarından, çaylardan və digər su hövzələrindən istifadə edirlər ki, bu da sonda bədbəxt hadisələrə səbəb olur.

Bu hövzələr mürəkkəb relyefə, sürətli axına, məhdud görüntüyə və digər təhlükəli xüsusiyyətlərə malik olduğundan, buradan istifadə edən vətəndaşların həyat və sağlamlığına ciddi təhlükə yaradır. Odur ki, bir daha vətəndaşlara müraciət edirik ki, çimərlik seçimində diqqətli olsunlar. Əgər hər hansı bir çimərlikdə xilasedici yoxdursa, xilasetmə texnika vasitələri mövcud deyilsə, bu o deməkdir ki, həmin ərazidə təhlükəsizlik tədbirləri görülməyib və bu kimi ərazilərdən istifadə təhlükəlidir.

Bir faktı nəzərinizə çatdırım ki, indiyə qədər sözügedən xidmət nəzarət etdiyi çimərliklərdə ölümlə nəticələnən suda boğulma hadisəsi qeydə alınmayıb. Ötən il ərzində xidmət əməkdaşları tərəfindən 165 nəfər sudan xilas olunaraq həyata qaytarılıb. Onlar hazırda sağlam həyatlarını davam etdirirlər. Bu rəqəmlər də onu deməyə əsas verir ki, həqiqətən də nəzarət olunan çimərliklərdən istifadə edilməli və çimərliklərdə xoş zaman keçirmək üçün hava şəraitinə də xüsusi diqqət yetirilməlidir. Bildiririk ki, küləyin sürəti saniyədə 10 metrdən artıq olduqda suya girmək qadağandır. O cümlədən hava qaraldıqdan sonra çimərlikdə suya girmək təhlükəlidir".

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 97 (8707) 5 iyun 2025

iyun

# Bunları bilirsinizmi?

* Kalka kağızının hazırlanmasında yarımfabrikat kimi batist parçasından istifadə edilir.
* Kirpi ilin 236 gününü yatır.
* Qərənfili və qızılgülü eyni güldana qoyduqda ətirləri itir.
* Fotoaparat yeni yarandığı vaxtda şəkil çəkdirənlər onun qarşısında 20 dəq. dayanmalı olurdular.
* Yunan və gürcü əlifbasında böyük hərf yoxdur.
* İlk üstüörtülü hovuz 1742-ci ildə Londonda inşa edilib.
* Fildə 35, itdə 39, quşlarda 42 rəqəmi bədən temperaturudur.
* İlk eskalator 1911-ci ildə Londonda açılmışdır.
* Görkəmli səyyah Tur Heyerdal səfərə çıxanda aclığını yatırmaq üçün özü ilə həmişə qoz götürürmüş.
* Ayay adlı meymun cinsinin boyu 40, quyruğu 60 sm olur, həşəratlarla qidalanır.
* Hindistanda matəm və hüzn rəngi ağ rəngdir.
* Çin otellərində xidmətçilərə "çay pulu» vermək təhqir sayılır.
* Azərbaycanın işğal faktını ilk dəfə ədəbiyyata "Gülzar" hekayəsi ilə Cəfər Cabbarlı gətirmişdir.
* Keçmişdə arpa (1 karat) ən kiçik çəki vahidi hesab olunurdu.
* Karfogen sərkərdəsi Hannibalın evini mühasirəyə alan romalıların əlinə keçməsin deyə o, özünü zəhərləyərək öldürüb.
* Hindistanda bitən Kennel ağacının meyvəsini yeyən insanlar fialka ətri saçır.
* Arizona statının milli parkına daxil olan hər kəsin üzərinə azanda tapılması üçün xüsusi aerozol vururlar.
* "Aptek" sözü yunan dilindən olub "anbar" deməkdir.
* “Ekvalipt ağacının yarpaqları günəşə doğru çevrildiyi üçün kölgə əmələ gətirmir.
* Heyvanlardan ən çox susuz qala bilən siçandır.
* Baobab ağacı odda yanmır.



## İstidə bu qidaları yemək olmaz: dondurma və limonad bu siyahıdadır

**Yay aylarında bir çox insan soyuq yeməklərə üstünlük verir, isti yeməklərdən isə uzaq durur. Lakin bu yanaşma sağlamlığa - xüsusilə qastrit, xora xəstəliyi, pankreatit və xolesistit kimi mədə-bağırsaq traktının xroniki xəstəliklərindən əziyyət çəkən şəxslərə zərər verə bilər. Xüsusilə istidə bir çoxlarının sevdiyi dondurma qəlyanaltı kimi tövsiyə olunmur. Yüksəkkalorili, yağlı və şəkərli olan bu məhsul həzm sistemini yükləməklə yanaşı, pis həzm olunur, yuxarı tənəffüs yollarının selikli qişasını soyudur, damar spazmına və nəticədə kəskin respirator xəstəliklərin (KRX) yaranmasına səbəb ola bilər.**

Süd kokteyli, kvas və ya limonad kimi içkilərlə sərinləmək də düzgün seçim deyil. Bu şirin içkilər sadəcə susuzluğu daha da artıracaq və istiliyi bədəndə saxlayacaq. Çünki bu cür içkilər normal tərləməyə mane olur və susuzlaşma riskini yüksəldir. Şübhəsiz ki, yayda orqanizm daha çox mayeyə ehtiyac duyur, çünki tər vasitəsilə maye itkisi artır. Amma bu ehtiyac düzgün şəkildə ödənilməlidir - adi su, çay, kompot və mors kimi içkilərə üstünlük verilməlidir.

## Rusiyada qadınlara və kişilərə qarşı nifrət dolu paylaşımlar edən şəxs cərimə edildi

**Rusiyanın Nijni Novqorod vilayətinin 23 yaşlı sakini qadına qarşı nifrət məzmunlu paylaşımlarına görə cərimə olunub. Məlumata görə, onlayn icmanın idarəedicisi olan kişi orada qadınlara qarşı təhqiredici paylaşımlar edib. O, qadınları “baba”, bəzi kişiləri isə “baborab” adlandırıb. İddia edib ki, “babalar” rəhbər vəzifələr tuta bilməzlər. Nifrəti qızışdırdığına görə o, 10 min rubl (200 manatdan yuxarı) məbləğində cərimələnib.**

# Məşhur iş adamını şir parçaladı



**Namibiyada səhra aslanlarını dəstəkləmək üçün bir çox işlərə qatılan və külli miqdarda pul xərcləməsi ilə tanınan iş adamı Bernd Kebbel aslanın hücumuna məruz qalaraq həyatını itirib. Alman iş adamı Bernd Kebbelin təbiətlə bağlı bir çox araşdırmada adı ön sıralarda çəkilirdi.**

Hadisə Namibiyanın şimal-qərbindəki Kunene bölgəsində baş verib. Dostları ilə ərazidə düşərgə salan Bernd Kebbel tualetə getmək üçün gecə gec saatlarda çadırını tərk edib. Çadırdan çıxarkən aslan alman iş adamını öldürüb. Turizm Nazirliyi və polisin hadisə yerindən topladığı məlumata görə, Kebbelin boyun nahiyəsindən aldığı dişləmə yarası onun ölümünə səbəb olub.

Hadisə şahidlərinin ifadəsinə görə, şir Kebbelin boynundan dişləyərək ona ağır xəsarətlər yetirib. Hadisə yerinə yaxın olan şəxslər müdaxilə etməyə çalışsalar da, buna nail ola bilməyiblər. Kebbel aldığı ağır xəsarətlərdən hadisə yerində həyatını itirib.

## ABŞ-da ana 6 yaşlı oğlunu şeytançıxarma mərasimi zamanı öldürüb



**ABŞ-da ana altı yaşlı oğlunu “cinləri qovmaq” üçün ekzorsizm (şeytançıxarma) mərasimi zamanı öldürüb. Oxu.Az xəbər verir ki, bu barədə “ABC News” nəşri məlumat yayıb. Məlumata görə, səlahiyyətlilər iki həftədən çox müddətdə məktəbə getməyən uşağın Florida ştatının Fort-Pirs şəhərindəki evinə gediblər. Uşağın cansız bədəni öz çarpayısında tapılıb.**

Anası Ronda Coys Paulinis detektivlərə bildirib ki, oğlunun bədənindən “cinləri qovmağa” çalışıb və uşaq hərəkət etməyi dayandırdıqda, onun cinlərdən azad olunduğuna və tezliklə həyata qayıdacağına inanıb.

Paulinisə qarşı ikinci dərəcəli qətl və ölüm faktını gizlətmək maddələri üzrə ittiham irəli sürülüb. Məlumdur ki, səlahiyyətlilər daha əvvəl də qadınla bağlı məişət və tibbi problemlər səbəbindən araşdırma aparıblar. Qadının emosional qeyri-sabitlik yaşadığı qeyd olunur.



## Yaponlardan inanılmaz ixtira: hər kəs üçün uyğun qan tapıldı

**Yaponiyalı alimlər qan qruplarından asılı olmayaraq hər kəs üçün uyğun olan süni qan hazırlayıblar. Bu barədə “Unian” məlumat yayıb. Qeyd olunur ki, bu texnologiya sınaq mərhələsindədir və təcili tibbi yardımda əsl inqilab hesab oluna bilər.**

Məlumata görə, adi qan cəmi bir ay saxlanıla bildiyi halda yeni süni qan iki il ədər qalır. Alimlər hesab edirlər ki, bu inkişaf minlərlə insanın həyatını xilas edə bilər.

## Zəngli saatdan əvvəl oyanırsınızsa, bu, xəstəlik əlaməti ola bilər: həkimdən xəbərdarlıq



**Zəngdən əvvəl oyanmaq vərdişi zərərsiz görünə bilər, lakin bəzi hallarda bu, qalxanvari vəzin hormonlarının həddindən artıq istehsalına işarə edir. Bu barədə Gazeta.ru-ya rusiyalı terapevt Ulyana Maxova danışıb.**

Mütəxəssisin sözlərinə görə, əgər insan mütəmadi olaraq vaxtından xeyli əvvəl oyanır və yenidən yata bilmirsə, bu, hormonal pozğunluqlarla əlaqəli ola bilər.

“Xüsusilə əgər bu vəziyyət qıcıqlanma, yorğunluq, ürək döyüntüsünün artması, narahatlıq, dəri quruluğu, dırnaq və saçların kövrəkliyi, həmçinin çəki itkisi və bədəndə titrəmə ilə müşayiət olunursa, diqqətli olmaq lazımdır. Bu simptomlar hipertiroidizmin - qalxanvari vəzin həddindən artıq hormon istehsal etdiyi vəziyyətin əlamətləri ola bilər”, - deyə ekspert xəbərdarlıq edib.

Maxova orqanizmin təbii xüsusiyyətləri ilə patoloji dəyişikliklər arasında fərq qoymağın vacibliyini artıra bilər. “İnsanların elə bir kateqoriyası var ki, onların orqanizmi normal qrafikdən daha erkən təbii oyanmağa köklənib. Onlara "torağaylar" deyirlər. Əgər erkən oyanmalar narahatlıq müşayiət olunmursa, insan gün ərzində özünü gümrah hiss edirsə, səhər yeməyindən əvvəl yüngül aclıq varsa, enerji tez bərpa edilirsə və yeni gün rejiminə asanlıqla uyğunlaşırsa - rejim düzəlişinə ehtiyac yoxdur. Lakin yuxu fasiləli olur və gücü bərpa etmirsə, bu, sağlamlıq problemlərinə işarə edə bilər", - deyə ekspert bildirib.

Həkim qeyd edib ki, yuxu rejiminin pozulması həyat keyfiyyətinə ciddi təsir göstərə bilər - diqqəti və immuniteti zəiflədə, həmçinin stres səviyyəsini artıra bilər. Qalxanvari vəzin işində pozğunluqdan şübhələndikdə ekspert endokrinoloqa müraciəti təxirə salmamağı məsləhət görür. Erkən diaqnostika və düzgün müalicə hormonal balansı bərpa etməyə və tam dəyərli yuxunu qaytarmağa kömək edəcək", - deyə Maxova sözlərini yekunlaşdırıb.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

“Yenì Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bìlər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

Lìsenziya N: B 114

SAYI: 1.500